Azərbaycan Respublikasının Ailə,
Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsi

# Yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə dərəcəsinin qiymətləndirilməsi üzrə

# ANALİTİK HESABAT

Bakı - 2021

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# Yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə dərəcəsinin qiymətləndirilməsi üzrə

# Analitik Hesabat

BAKI - 2021

**Redaksiya Şurası:**

Sədaqət Qəhrəmanova

Aynur Sofiyeva

Ceyran Rəhmətullayeva

**Redaksiya heyəti:**

Elgün Səfərov

Aidə Seyidli

Fərid Ədilov

Leyla Şərifzadə

Tural Hüseynzadə

İş İcraçısı:

**Sahib Məmmədov**

*Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası*

## Akronimlər

AQUPDK-Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi

BMT-Birləşmiş Millətlər Təşkilatı

ÜST-Ümumdünya Səhiyyə Təşkilatı

QİÇS-Qazanılmış immun çatışmazlıq sindromu

CM-Cinayət Məcəlləsi

UADM-Uşaq və Ailələrə Dəstək Mərkəzi

QHT- Qeyri-Hökumət Təşkilatları

İXM-İnzibati Xətalar Məcəlləsi

CM-Cinayət Məcəlləsi

MDB-Müstəqil Dövlətlər Birliyi

## MÜNDƏRİCAT

**1.Giriş** .......... **5**

**2.İcmal** .......... **10**

**3.Metodologiya** .......... **12**

**4.Qanunvericiliyin təhlili** .......... **15**

*4.1.İnzibati cəza tədbirləri* .......... *15*

*4.2.Cinayət təqibi* .......... *17*

*4.3.Digər qanunvericilik aktları* .......... *18*

*4.4.Qanunvericiliyin təkmilləşdirilməsinə dair Azərbaycanın beynəlxalq öhdəlikləri* .......... *19*

**5.Yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə göstəricilərinə və profilaktik tədbirlərə dair statistik göstəricilərin təhlili** .......... **20**

**6.Yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə barədə sorğu nəticələrinin təhlili** .......... **23**

*6.1.Giriş* .......... *23*

*6.2.Metodologiya* .......... *23*

*6.3.Respondentlər barədə demoqrafik məlumat* .......... *24*

*6.4.Respondentlərin üzləşdiyi problemlər* .......... *25*

*6.5.Narkotik maddələrdən istifadənin yayılması* .......... *26*

*6.6.Narkomanlığın* səbəbləri və nəticələri barədə .......... *31*

*6.7.Narkomanlığın qarşısının alınması* .......... *32*

*6.8.Sorğunun əsas nəticələrinin xülasəsi* .......... *33*

**7.Dərinləşmiş intervülərin nəticələri** .......... **35**

**8.Nəticələr** .......... **49**

**9.Təklif və tövsiyələr** .......... **53**

## 1.GİRİŞ

“Narkomanlıq”, “narkotik maddələr”, “narkoman” ifadələri 20-ci əsrin ikinci yarısından başlayaraq xüsusi problem olaraq bəşər həyatının bir hissəsinə çevrildi. Narkomanlıq qlobal miqyas və xarakter almaqla sosial patalogiyanın xüsusi sferası olaraq sosial-bioloji təhdidə çevrildi. Səhiyyənin bu problemlə bağlı xüsusi sahəsi yarandı. Yüzlərlə narkoloji klinikalar, sağlamlıq mərkəzlərinə digər infrastrukturlar formalaşmağa başladı. Minlərlə ölüm halları, özü də bir çox hallarda cəmiyyətlərin ən yaxşı nümayəndələrinin narkotiklərdən ölməsi adiləşdi. Nəhəng pul dövriyyəsi olan və ən güclü mafiyaya çevrilən ümumdünya narkobiznes sferasının yaranması və qlobal genofona zərbə vuran fenomenin təkamülü baş verdi[1].

Təəssüflə qeyd edilməlidir ki, xüsusilə son onilliklərdə, qlobal informasiya məkanında baş verən inqilabi sıçrayışlar narkotik istifadəçiləri ordusunu sürətlə cavanlaşdırdı. Yeniyetmə və ilkin gənclik dövründə bu bəşəri bəlaya düçar olanların sayı sürətlə artmaqdadır. Bu baxımdan ən mürəkkəb vəziyyət yeniyetmə Narkomanlığının inkişafı ilə bağlıdır.

Hazırda müasir elmin əsas axtarışlarından biri də yeniyetmə və gənc nəslin narkomanlığa yuvarlanmasının səbəblərini müəyyən etməkdir.

Hazırkı dövrdə dünya səviyyəsində narkotik və psixoaktiv maddələr qəbul edən yeniyetmə və gənclərin sayı fasiləsiz olaraq artmaqdadır. Tədqiqatlar göstərir ki dünyada yaşayan bütün gənclər narkotiklər və onun öldürücü təsirləri barədə ən azı elementar məlumatlara malikdir. Təəssüf ki, narkotiklərin zərəri barədə məlumatlılıq narkomanlığının yayılmasının qarşısını effektiv ala bilmir.

Yeniyetmə və ilkin gənclik yaşında narkotik maddələrdən istifadə insan psixikasında ciddi və ağır dəyişikliyə gətirir. Nəticədə sosial baxımdan pozitiv olan ətraf insanlarla əlaqələrdə deformasiya yaranır. Davranışda müxtəlif pozuntular, müxtəlif infeksiyalara yoluxma, o cümlədən hepatit viruslarına və qazanılmış immun çatışmazlıq sindromuna (QİÇS) yoluxmaya və digər ağır xəstəliklərə gətirir.

İlk növbədə **narkotiklərdən istifadə insanın orqanizminə dağıdıcı təsir göstərir və şəxsiyyətin deqradasiayasına gətirir, bu isə öz növbəsində başqalarının əhatəsində yaşayan narkomanlığa** düçar olmuş şəxsin özü**nə deyil, həm də onun yaşadığı cəmiyyət üçün ciddi təhlükəyə** çevrilir.

Digər bir problem **narkotik vasitələri yayanların yeniyetmə və gənclərə potensial və perspektivli müştəri kimi baxmasıdır**. BeləlƏrinin nakomaniya bəlasına düçar olması daha uzun dövr üçün istifadəçi bazasını formalaşdırır.

Narkotik maddələrinin istifadəsinin artması cinayətkarlığın artmasına düz mütənasıbdır. Bəzi ölkələrdə tədqiqat mərkəzlərinin araşdırmalarına görə **yeniyetmə narkomanların üçdə iki hissəsi sonradan cinayətkara çevrilir[2]**.

2016-cı ildə 15-64 yaş arasında olan 275 milyon nəfər və ya dünya əhalisinin 5,9%-i heç olmasa bir dəfə narkotik vasitələrdən istifadə edib. Narkotiklərdən istifadə edən təxminən 31 milyon nəfər narkotik maddələrdən istifadə zəminində xəstəliklərdən

---

1. https://works.doklad.ru/view/JognUmV9XQQ.html
2. http://www.cenadm.gov.by/ru/rayon/view/nroditeljam-o-sovremennoj-probleme-narkomanii-osobennosti-profilaktikin-16428/
https://www.incb.org/documents/Publications/AnnualReports/Thematic_chapters/English/AR_2003_E_Chapter_I.pdf

əziyyət çəkir və ya bu səbəbdən sağlamlığa dəyən zərərə görə müalicəyə ehtiyac duyur. İlkin qiymətləndirmələrə görə 15-16 yaş arasında təxminən 13,8 milyon yeniyetmə (5,9%) ən azı marixuanadan istifadə edir[3].

2017-ci il üzrə qiymətləndirmədə də rəqəmlər 2016-cı ilin rəqəmlərinə yaxındır və bu rəqəmlər 2009-cu illə müqayisədə 30% artmışdır. Ən təhlükəli olan budur ki, yeniyetmələr arasında inyeksiya yolu ilə narkotik maddələrin qəbulu sürətlə artmaqdadır ki, bu da inyeksiya yolu ilə yayılan xəstəliklərin, o cümlədən QİÇS infeksiyasının yoluxan yeniyetmələrin sayını sürətlə artırır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qiymətləndirməsinə görə Mərkəzi və Şərqi Avropada hər inyeksiya yolu ilə narkotik maddə qəbul edən 4 nəfərdən biri yaşı 20-dən aşağı olanlardır[4]. ÜST qiymətləndirməsinə görə narkotik maddələrdən istifadə adətən yuxarı yeniyetməlik yaşında və həddi –bülüğ dövrünün əvvəlində yaranır[5].

Qonşu Rusiya Federasiyasında statistikanın göstəricilərinə görə “uşaq narkomanlığı” həddən artıq yüksək həddə çatmışdır. Rusiyadakı bütün narkomanların 20%-ni məktəblilər, 60%-ni isə 16-30 yaş arası gənclər təşkil edir. Rəyi soruşulan gənc narkomanların 70% etiraf edir ki, onlar narkotik maddəni ilk dəfə məktəbli olarkən qəbul edib[6].

ABŞ-ın narkotiklərdən sui-istifadə üzrə Milli Mərkəzinin (NCDAS) məlumatına görə yeniyetmələrin ən azı hər 8 nəfərindən biri zərərli maddələr qəbul edir. Qeyd olunur ki, 2016-2020-ci illər arası dövrdə 8-ci sinifdə oxuyanlar arasında narkotik maddələrin qəbulu 61% artmışdır.12-ci sinifə qədər oxuyanlar arasında alkoqol qəbulu 62% artmışdır. Ən azı 50% yeniyetmə heç olmasa bir dəfə narkotik tərkibli maddə qəbul edib.[7]

Digər ölkələrin analoji qurumları da son onillik ərzində narkomanlığın cavanlaşmasını müşahidə edirlər.Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə “Mərkəzi və Şərqi Avropada inyeksiya yolu ilə narkotik qəbul edənlərin hər 4 nəfərindən biri 20 yaşdan aşağı olanlardı”[8]

BMT Baş Katibinin Gənclərin İşi üzrə Xüsusi Nümayəndəsinin ofisinin məluma-




3. https://www.unodc.org/wdr2018/prelaunch/WDR18_ExSum_Russian.pdf
4. https://www.unfpa.org/sites/default/files/pub-pdf/WHO_HIV_2015.10_eng.pdf
5. https://www.unodc.org/documents/wdr2014/World_Drug_Report_2014_web.pd
6. https://www.armdgb.ru/dlya-patsientov/stati/40-detskaya-z
7. https://drugabusestatistics.org/teen-drug-use/
8. https://www.unfpa.org/sites/default/files/pub-pdf/WHO_HIV_2015.10_eng.pdf

tında da qlobal səviyyədə yeniyetmələrin zərərli vərdişlərə, o cümlədən narkomanlığa meyllərinin davamlı artması göstərilir[9].

Təəssüflə qeyd olunmalıdır ki, Azərbaycanda da yeniyetmələr və gənclər arasında narkotik və psixotrop maddələrdən istifadə hallarının dinamikası yüksələn xətt üzrə davam edir. Bununla belə qeyd olunmalıdır ki, Azərbaycanda yeniyetmələr arasında narkomanlıq göstəricilərinə dair ciddi tədqiqatlar azdır. Bu baxımdan bu yaş qrupunda olan istifadəçilərlə bağlı statistika əsasən cinayət təqibinə cəlb edilənləri əhatə edir. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət törətmiş şəxslərin yaş bölgüsü ilə bağlı statistik göstəricilərə nəzər saldıqda 14-17 yaş arasında bu zəmində cinayət törədənlərin sayı 2019-cu ildə 14 nəfər, 18-29 yaş arasında olub bu zəmində cinayət törədənlərin sayı 814 nəfər olub. 2019-cu ildə Cinayət Məcəlləsinin 234-cü maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb edilən yeniyetmələrin sayı 12 nəfər, 2020-ci ilin birinci rübündə 3 nəfər olub. Narkotik maddələrdən istifadə edən (CM-234.1.) yetkinlik yaşına çatmayanlar 8 nəfər, 2020-ci ilin birinci rübündə 2 nəfər olub[10]. Amma bu statistika real vəziyyəti əks etdirmir və yalnız yaxalanaraq məsuliyyətə cəlb olunanların sayını göstərir.

Yeniyetmə və gənclər arasında narkomanlığın yayılmasının coğrafiyası, yeniyetmələrin narkotik maddələrdən ilk dəfə istifadə etməsi ilə bağlı davamlı araşdırmaların olmaması səbəbində profilaktika işlərinin aparılmasında problemlər ortaya çıxır. Əvvəllərdə aparılan tədqiqatlara əsaslanaraq yerli mütəxəssislər qeyd edirlər ki, yeniyetmə dövründə dispanserizasiya ilə bağlı heç kəs müraciətlər etmir. Buna baxmayaraq bəzi qeyri-hökumət təşkilatlarının 9,10 və 11-ci sinif şagirdləri arasında keçirdikləri anonim sorğuya cəlb edilənlərin 30%-i qeyd edib ki, onlar artıq narkotik maddədən yoxlamaq (dadına baxmaq) məqsədi ilə istifadə ediblər"[11]. Lakin bu nəticələr digər tədqiqatlarda təsdiqini tapmır.




Azərbaycanda narkomanlığın genişlənməsi, ölkənin narkotik maddələrin daşınması üçün tranzit ölkəyə çevrilməsi dövlət tərəfindən ciddi problem kimi qəbul olunmuş və narkomanlığa qarşı mübarizə sahəsində hüquqi tədbirlərin görülməsi və mübarizə mexanizmlərinin yaradılmasına hələ ötən əsrin 90-cı illərindən başlanılmışdır. Aparılan mübarizə tədbirlərinin müəyyən müsbət nəticələri fonunda problem nəinki qalmaqdadır, hazırda o yeniyetmələr və ilkin gənclik dövrünü yaşayan insanlar arasında da

---

9. https://www.un.org/youthenvoy/wp-content/uploads/2015/06/YouthStatssubstabceabuse.pdf Bu linkdə müxtəlif hesabatlara keçidlər qoyulub.
10. Məlumatlar Səhiyyə nazirliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası Daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Ailə, Qadın və Uşaq Probləmri üzrə Dövlət Komitəsinə təqdim edilib
11. http://www.anl.az/down/meqale/exo/exo_oktyabr2009/92645.htm

yayılmaqdadır. Miqyas geniş olmasa belə tendensiyanın artıma doğru meyilli olması narahatlıq doğurur. Digər narahatlıq doğuran məsələ xüsusi zərərli sintetik tərkibli narkotik vasitələrin əlçatanlığının və istifadəsinin artmasıdır[12].

Azərbaycan Respublikası Prezidentinin 26 avqust 1996-cı il **"Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında"** Fərmanı ilə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət komissiyası yaradılmışdır[13].

"Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 11 mart 2020-ci il tarixli Sərənacamı[14] ilə komissiyanın tərkibi yenilənmişdir[15].

Komissiyanın yarandığı dövr ərzində bir neçə dövlət proqramları, o cümlədən AR Prezidentinin 28 iyun 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılmasına qarşı mübarizə üzrə Proqramı (2007-2012-ci illər)", Prezidentinin 24 iyun 2013-cü il tarixli 2966 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"[16] qəbul olunmuşdur.

Dövlət Proqramının icrasına məsul olan dövlət orqanları və dövlət təsisatları sırasında Nazirlər Kabineti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu da olmaqla ondan artıq dövlət orqanı və dövlət təsisatı vardır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi "Beynəlxalq tədbirlər", "Qanunvericiliyin təkmilləşdirilməsi", Profilaktika, müalicə, reabilitasiya və maarifləndirmə tədbirləri" bölmələrində nəzərdə tutulan bir neçə tərbirin icrasına məsul olan dövlət orqanları sırasındadır.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı[17] olmaqla yeniyetmələr arasında zərərli vərdişlərin azaldılması, o cümlədən narkomanlığın aradan qaldırılması istiqamətində müvafiq tədbirlər, o cümlədən geniş maarifləndirmə tədbirləri həyata keçirməkdədir. Komitə bu istiqamətdə yerli qeyri-hökumət təşkilatları (QHT) ilə əməkdaşlıq edir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq və Ailələrə Dəstək Mərkəzləri (UADM) tərəfindən həssas təbəqədən olan ailələrlə müxtəlif mövzularda, o cümlədən "Narkomanlıq və onun fəsadları" mövzusunda təlimlər təşkil olunmuşdur[18].

---

12. https://lent.az/xeber/hadise/bakida-pati-satanlara-qarsi-xususi-emeliyyat-19-nefer-tutuldu-video-406989
13. http://www.e-qanun.az/framework/12390
14. http://e-qanun.az/framework/45646
15. http://www.e-qanun.az/framework/18239
16. http://e-qanun.az/framework/42971
17. http://www.scfwca.gov.az/page/komitenin-esasnamesi
18. http://scfwca.gov.az/store/media/Aila%20qadin%20ushaq%20Jurnal%C4%B1.pdf

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "**Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün strategiyası**[19]"nın 4.4.20 ci bəndində "uşaqların zərərli vərdişlərdən qorunması barədə təhsil müəssisələrində səmərəli maarifləndirmə işinin görülməsi" nəzərdə tutulur.

Bununla belə yuxarıda qeyd olunduğu kimi ölkəmizdə yeniyetmələr arasında narkomanlığın yayılmasının səbəblərinin mütamadi öyrənilməsi, yeniyetmə narkomanlığın ən əsas yayılma zonaları, yayılma yerlərinə dair məlumatlar mükəmməl deyildir. Bu baxımdan problemin öyrənilməsi və əldə edilən nəticələr əsasında yeniyetmə narkomanlığına qarşı mübarizədə dövlət siyasətinin müəyyən edilməsi olduqca zəruridir.

19. http://www.e-qanun.az/framework/45086

## 2. İCMAL

Yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə dərəcəsinin qiymətləndirilməsi üzrə hazırlanmış analitik hesabat ölkədə yeniyetmələr arasında narkomanlığın yayılma göstəricilərinin yayılma səbəblərinin habelə problemin həllinə yönələn siyasətin müəyyən edilməsi məqsədi ilə hazırlanmışdır.

Analitik hesabat müəyyən edilmiş metodologiya üzrə aparılan tədqiqatlar əsasında işlənilmiş və nəticə və təkliflər (tövsiyələrlə) yekunlaşmışdır.

Tətbiq olunan tədqiqat metodları **qanunvericiliyin təhlili, statistik göstəricilərin təhlili**, ***onlayn*** **sorğular yolu ilə ictimai rəyin öyrənilməsi** və **ekspertlər və mütəxəssislərlə dərinləşmiş intervülərin aparılması**ndan ibarət olmuşdur.

***Qanunvericiliyin təhlili***

Narkomanlıqla mübarizədə, o cümlədən narkotiklərin və onların perekurslarının qanunsuz dövriyyəsinin qarşısının alınmasında qanunvericilik mühüm əhəmiyyət kəsb edir. Qanunlar narkomanlıqla mübarizədə xəbərdaredici, cəzalandırıcı, profilaktik tədbirlər üçün hüquqi əsaslar yaradır, prosedur və qaydalar müəyyən edir. Bu baxımdan hesabatda qanunvericiliyin təhlilinə yer ayrılmışdır.

Cinayət təqibi, inzibati tənbeh tədbirləri, dispanserizasiya kimi məsələlərdə qanunvericilik bir çox hallarda yeniyetmə və yaşlılara münasibətdə  fərqli deyildir və qanunvericiliyin müddəaları eyni dərəcədə tətbiq olunur. Hesabatın tövsiyələr hissəsində mümkün hallarda qanunvericiyin yeniyetmələrə münasibətdə fərqli olmasına dair təkliflər verilib.

Hesabatda narkomanlığa qarşı, o cümlədən uşaqların narkomanlığa cəlbi, valideyn məsuliyyəti ilə bağlı inzibati və cinayət məsuliyyəti, profilatik tədbirləri təmin edən qanunvericiliyin vəziyyəti təhlil olunur.

***Statistik göstəricilərin təhlili***

Yeniyetmələr arasında narkomanlığın yayılma arealı, əsas yayılma regionları və yerləri, narkomanlığa düçar olan yeniyetmələrin kəmiyyət göstəriciləri, profilaktik işlər, o cümlədən tibbi və sosial reablitasiya tədbirlərinə cəlb edilən yeniyetmələrə dair statistika yox dərəcəsindədir. Aidiyyatı dövlət orqanlarına Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi vasitəsi ilə verilən sorğular əsasında əldə edilən statistika real mənzərəni müəyyən etmək üçün yararlı deyildir. Rəsmi və açıq mənbələrdən əldə edilən məlumatlar yeniyetmə narkomanlığı sahəsində tədqiqatların olmamasını və bu baxımdan mövcud statistikanın reallığı əks etdirmədiyi qənaətini yaradır.

***Onlayn sorğular yolu ilə ictimai rəyin öyrənilməsi***

500 respondent arasında keçirilən *onlayn* sorğular yeniyetmələr arasında narkomanlığın yayılmasının rəsmi statistika ilə müqayisədə dəfələrlə çox olmasını göstərir. Bununla belə respondetlərin özləri narkotik maddələrdən istifadə etmələrini əksəriyyət hallarda etiraf etmirlər. Eyni zamanda respondentlər yeniyetmə narkomanlığının coğrafi yayılmasının da daha geniş olmasını göstərir.

***Ekspertlər və mütəxəssislərlə dərinləşmiş intervülərin***

Təhsil, elm, dövlət və ictimai sektoru əhatə edən və ölkənin müxtəlif regionlarında yaşayan və fəaliyyət göstərən 22 nəfər ekspert və mütəxəssislə dərinləşmiş intervü aparılmışdır. Onlara 9 sual verilmiş və alınan cavablar ümumiləşdirilmişdir. Bir neçə məsələ istisna olmaqla əksəriyyət yeniyetmələr arasında narkomanlığın yayılmasının səbəblər ilə bağlı eyni və ya oxşar fikirlər səsləndiril-

mişdir. Narkomanlığın yayılma yerləri barədə də əksəriyyətin fikirləri üst-üstə düşür.

***Yekun nəticə və təkliflər***

Analitik hesabatın sonunda tədqiqatın nəticələri göstərilmiş və yeniyetmə narkomanlığı ilə mübarizə, hüquqi, tibbi, sosial reablitasiya tədbirlərinə dair təkliflər verilmişdir.

## 3. METODOLOGİYA

Yeniyetmələr arasında narkomanlığının yayılması problemini aktual edən hə də odur ki, müstəqil həyata başlamamış belə şəxslər gələcək həyatların, sağlamlıqlarını böyük risk altında qoymaqla yanaşı həmçinin cəmiyyət üçün təhlükəli olurlar. Yuxarıda qeyd olunduğu kimi bu bəlaya düçar olan yeniyetmələrin ən azı üçdə ikisi narkotik vasitələrdən asılı vəziyyətə düşdükdən sonra bu və ya digər cinayət əməlləri törədərək cinayətkara çevrilirlər.

Yeniyetmələr arasında narkomanlığının, ümumilikdə isə pis vərdişlərin yaranmasının səbəblərinin öyrənilməsi, belə kateqoriya insanların reablitasiyası o qədər də asan deyildir.

Yeniyetmələr, xüsusən yuxarı sinif şagirdləri arasında narkomanlığının yayılması ilə bağlı tədqiqatların aparılması xüsusi həssaslıq və ehtiyatlı davranış tələb edir. Heç bir fəaliyyət narkomanlığın dolayı təşviqinə və narkotik maddə və onların prekursorların qanunsuz dövriyyəsinə dair lüzumsuz məlumatların yayılmasına xidmət etməməlidir. Bu baxımdan qlobal səviyyədə də uşaq narkomanlığına, yeniyetməlik və ilkin gənclik dövründə digər zərərli vərdişlərə aludə olanlar arasında sorğuların, intervülərin keçirilməsinə xüsusi həssaslıqla yanaşırlar. Milli xüsusiyyətləri və qanunvericilik tələblərini də nəzərə aldıqda problemin öyrənilməsinə mane olan əsas problemlər aşağıdakılar hesab oluna bilər:

•Yeniyetmələr arasında narkomanlığın tədqiq olunmasının da müəyyən çətinlikləri vardır. Yaşı 18 dən az olan şəxslərin (məktəblilərin) narkotik maddələrdən istifadəsini (o cümlədən inyeksiya yolu ilə) müəyyənləşdirmək üçün onların intervü və sorğulara cəlb olunması etik prinsiplərə ziddir və bu baxımdan daha çox başqa tədqiqat alətlərindən istifadə olunması zərurəti yaranır;

•İntervü və ya anonim sorğulara cəlb edilən narkotik maddə istifadəçilərinin etiraf göstəriciləri aşağıdır. Onlar hətta anonim sorğulara düz cavab verməkdən çəkinirlər və sonradan məsuliyyətə cəlb olunacaqlarını ehtimal etdiklərindən narkotik vasitələrdən istifadə etdiklərini etiraf etmirlər.

•Mükəmməl statistika yoxdur. Hüquq-mühafizə orqanlarının məsuliyyətə cəlb etdiyi şəxslər barədə məlumatlardan kənar dəqiq rəqəmlərin və statistik göstəricilərin, o cümlədən regionlar və əhali qrupları üzrə statistikanın məhdudluğu tədqiqat üçün problem yaradır;

•Latentlik problemi. Ailələr hətta yeniyetmə övladlarının narkotik maddələrdən davamlı istifadəsini müəyyən etdikdə belə uzun müddət bunu gizlətməyə çalışır və problemi ailə daxilində həll etməyə cəhd edirlər. Yeniyetmələr arasında dispanserizasiyanın göstəriciləri yox dərəcəsindədir.

**Xüsusi hal:** Tədqiqat işləri aparılan dövr koronovirusla bağlı elan edilmiş xüsusi karantin rejiminın qüvvədə olduğu vaxta təsadüf etmişdir. Pandemiya ilə bağlı məhdudiyyətlərin yeniyetmələr arasında pis vərdişlərin, xüsusən narkomanlığın artıb və ya azalmasına təsirlərinin olub-olmamasını ayrıca obyektiv indikatorlarla müəyyən edilməmişdir. Bununla belə dərinləşmiş intervülər nəticəsində bir neçə qənaət əldə edilmişdir. Bunlar:

- Yeniyetmələrin narkotik maddələr barədə məlumatları, narkotik maddələri əldə etməsi üçün əsas məkanlar olan məktəblər, məhəllə, qəlyan kafeləri, gecə klubları və s. kütləvi toplaşma yerlərinin fəaliyyətin məhdudiyyətlərin qoyulması əlaqələri, o cümlədən narkotiklərlə bağlı məlumatların və narkotik maddələrin əldə edilməsini çətinləşdirmişdir;
- Yeniyetmələr məhdudiyyət dövründə internetdən və sosial şəbəkələrdən daha çox istifadə etməyə başlamış və nəticədə onların zərərli məlumatlar əldə etmək, o cümlədən narkotiklər, onlardan istifadə və əldə etmək

yollarına dair məlumatlara çıxış imkanları genişlənmişdi.

Həyata keçirilən tədqiqat **obyekti**, **predmeti** və **məqsədləri** aşağıdakılardır:

Tədqiqatın əsas **obyektləri** ölkə əhalisinin ictimai rəyi, ekspert rəyləri və qanunvericilikdır.

Tədqiqatın **predmeti** yeniyetmələr arasında narkomanlığının yayılma səbəbləri, yayılma miqyası, yayılma yerlərinin (arealının) öyrənilməsi.

### *3.1.Tədqiqatın məqsədi*

Tədqiqatın məqsədi yeniyetmələr arasında zərərli vərdişlərin, o cümlədən narkomanlığın aradan qaldırılmasına yönələn qərarların qəbulu, mexanizmlərin yaradılması və prosedurların tətbiqi üçün siyasətin formalaşmasına dair təkliflər və tövsiyələr hazırlamaqla problemin həllinə dəstək verməkdir.

### *3.2.Tədqiqatın vəzifələri*

- Ölkədə yeniyetmələr arasında narkomanlığın yayılmasının dinamikasının müəyyən edilməsi;
- Əhalinin yeniyetmələr arasında narkomanlığın yayılması səbəbləri, yayılma yerləri və yayılmaların mənfi nəticələri barədə rəyinin öyrənilməsi;
- Mütəxəssis və ekspertlərin yeniyetmələr arasında narkomanlığın yayılması səbəbləri, yayılmanın əsas təzahürləri, yayılmanın nəticələri və yeniyetmə narkomanlığının qarşısının alınmasına dair fikirlərinin öyrənilməsi;
- Yeniyetmə narkomanlığının daha çox yayıldığı ərazilər və yayılma yerlərinin (məkanlarının) müəyyən edilməsi;
- Yeniyetmə narkomanlığının yayılmasının sosial-mədəni aspektlərinin müəyyənləşdirilməsi;
- Yeniyetmələr arasında narkomanlığının yayılmasının motivlərinin müəyyən edilməsi;
- Həyata keçirilən qanunvericilik, maarifləndirici və cəza tədbirlərinin effektivliyinin qiymətləndirilməsi;
- Effektiv mübarizə üsul və vasitələrinin müəyyən edilməsi və müvafiq təkliflərin hazırlanması;
- Yeniyetmə narkomanlığı ilə mübarizə üzrə siyasətin formalaşması üçün tövsiyələrin hazırlanması

### *3.3.Tədqiqatdan gözlənilən nəticələr*

- Yeniyetmələr arasında narkomanlığın yayılma səviyyəsi barədə ilkin məlumatlar toplanacaqdır;
- Tədqiqat nəticəsində analitik təhlil və tövsiyə sənədi hazırlanaraq təqdim ediləcəkdir;
- Tədqiqatın nəticələrindən,verilən təklif və tövsiyələrdən yeniyetmələr arasında zərərli vərdişlərin, xüsusən də narkomanlığın yayılmasının qarşısının alınması üçün qanunvericiliyin təkmilləşdirilməsi və mübarizə tədbirlərinin effektivliyinin artırılmasına yönələn fəaliyyətlər zamanı istifadə olunacaqdır.

### *3.4.Tədqiqat metodları*

Yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə dərəcəsinin qiymətləndirilməsinin aparılması, təhlil və tövsiyə sənədinin hazırlanması üçün istifadə olunacaq metodlar aşağıdakılar olmuşdur:

**•500 nəfər arasında onlayn anket sorğusunun keçirilməsi.** Bu sorğular bey-

nəlxalq metodologiyaya əsaslanmaqla[20] və bütün etik normalara əməl olunmaqla həyata keçirilmişdir. Əldə olunan nəticələr yekun təhlil və tövsiyə sənədində əks olunmuşdur;

•**Müvafiq qanunvericiliyin təhlili.** Qanunvericiliyin təhlili mövcud qanunvericilikdə olan boşluqların, ziddiyyətlərin müəyyən edilməsi və qanunvericilərə bununla bağlı təklif və tövsiyələrin hazırlanması məqsədi ilə həyata keçirilmiş və nəticələr yekun təhlil və tövsiyə sənədində əks olunmuşdur;

•**Strukturlaşmış (dərinləşmiş) intervülər**. Strukturlaşmış intervü mütəxəssislər və ekspertlər, o cümlədən orta məktəb direktorları, müəllimlər, ixtisaslaşmış QHT rəhbərləri, aidiyyatı dövlət qurumlarının məsul əməkdaşları arasında aparılmışdır və problemin daha dərindən öyrənilməsi üçün həyata keçirilmişdir. Nəticələr yekun hesabatda ayrı fəsildə təqdim edilir;

•**Məlumatların toplanması və təhlili**. Mövcud olan məlumatlar, o cümlədən "uşaq narkomanlığı" (yeniyetmələr arasında narkomanlıq) barədə göstəricilərin, o cümlədən yayılma arealı, regionlar üzrə göstəriciləri müəyyən etmək üçün zəruridir. Bu baxımdan Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsinin müvafiq dövlət orqanlarına verdiyi sorğular əsasında əldə edilən məlumatlar toplanaraq təhlil edilmişdir;

### *3.5.*Əsas tədqiqat alətləri

- Sosioloji sorğu anketi
- Qanunvericilik aktları
- Yazılı İnformasiya sorğuları
- Statistik rəqəmlər
- Dərinləşmiş intervü sualları

Təqdim olunan metodologiya və tədqiqat alətləri vasitəsi ilə əldə edilən nəticələr ümumiləşdirilmişdir. İctimai rəy sorğusu, strukturlaşmış intervülər ölkədə yeniyetmələr arasında narkomanlığa meyllilik, narkotik vasitələrdən istifadənin artım dinamikasına həm cəmiyyətin, həm də ekspert camiyyəsinin baxışlarını müəyyənləşdirmişdir.

Dövlət orqanlarından əldə edilən statistik məlumatlar təhlil olunmaqla yanaşı, həmçinin müvafiq qurumlarda mövcud olan məlumatların, o cümlədən statistik məlumatların kifayət qədər olub-olmamasını müəyyən edilmişdi ki, bu da müvafiq tövsiyələrin hazırlanmasında istifadə edilmişdir.

Tədqiqatlar nəticəsində həmçinin qanunvericilik və dövlət proqramlarının daha da təkmilləşdirilməsi üçün təklif və tövsiyələrin hazırlanmışdır və hesabatda daxil edilmişdir.

---

20. UNESCO-nun Bioetika və İnsan Haqqları üzrə Beynəlxalq Bəyannaməsi (Universal Declaration on Bioethics and Human Rights) http://portal.unesco.org/en/ev.php-URL_ID=31058&URL_DO=DO_TOPIC&URL_SECTION=201.html ICC (Beynəlxalq Ticarət Palatası) və ESOMAR (Avropa Rəy və Bazar Araşdırmaları Cəmiyyəti) tərəfindən hazırlanmış Rəy və Bazar Araşdırmaları, Sosial Tədqiqatlar və Məlumat Təhlili üzrə Beynəlxalq Kodeks (ICC/ESOMAR International Code on Market, Opinion and Social Research and Data Analytics) https://www.esomar.org/uploads/pdf/professional-standards/ICCESOMAR_Code_English_.pdf

Beynəlxalq Sosiologiya Assosiasiyasının Etik Kodeksi (The International Sociological Association's (ISA) Code of Ethics) https://www.isa-sociology.org/en/about-isa/code-of-ethics

## 4. QANUNVERİCİLİYİN TƏHLİLİ

Azərbaycan Respublikasında Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısının alınması, narkomanlığa qarşı mübarizənin hüquqi əsaslarının və mexanizmlərinin yaradılması istiqamətində bir sıra normativ-hüquqi aktlar qəbul olunmuşdur. Azərbaycan Respublikası həmçinin müvafiq beynəlxalq normalara da tərəfdar çıxmışdır[21].

Yuxarıda qeyd olunduğu kimi narkomanlığa qarşı mübarizə məqsədi ilə dövlət proqramları qəbul olunmuş və mexanizmlər yaradılmışdır. Narkomanlığın profilaktikası və xəbərdar olunmasına yönələn tədbirlər, o cümlədən inzibati və cinayət məsuliyyətini müəyyən edən qanunvericilik aktları qəbul olunmuşdur. Yeniyetmələr arasında zərərli vərdişlərin yayılmasının qarşısının alınması üçün müvafiq qanunvericilik aktları, o cümlədən 2002-ci il 31 may tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"[22] təsdiq edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 19 avqust tarixli, 136 nömrəli qərarı ilə "Narkoloji xəstələrin qeydiyyatının aparılması qaydası və onların qeydiyyatda olma müddəti" təsdiq edilmişdir[23]

Mövcud qanunvericiliyə nəzər saldıqda narkomanlığa qarşı mübarizə tədbirləri **sosial, tibbi, informativ (maarifləndirici və məlumatlandırıcı) və cəza** tədbirlərini əhatə edir.

Təəssüflə qeyd olunmalıdır ki, yeniyetmələr arasında zərərli vərdişlərin, o cümlədən narkomanlığın yayılmasının qarşısının alınması üçün göstərilən tədbirlər istənilən effekti vermir. Bunun da əsas səbəbi qanunvericiliyin bir çox hallarda təkmil olmaması, əsas tədbir kimi cəza tədbirinin seçilməsi, reablitasiya tədbirlərinin effektivliyinin aşağı olması, yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin və təhsil sisteminin yeniyetmə narkomanlığına qarşı mübarizə tədbirlərinin bir çox hallarda formal xarakter daşımasıdır.

Ənənəvi qadağa və cəza üsulları yeniyetmə narkomanlığına qarşı mübarizədə əsas profilaktika aləti olaraq qalmaqdadır. Eyni zamanda inzibati və cinayət təqibi yeniyetmə narkomanlığının yayılmasının səbəblərini aradan qaldırmır, yalnız nəticə ilə mübarizə tədbirlərini əhatə edir.

***4.1.***İnzibati cəza tədbirləri

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununun 22.1-ci maddəsinə görə "*Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar inzibati məsuliyyət Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yaranır*"[24].

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (İXM) cinayət məsuliyyəti yaratmayan "narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar" inzibati cəza tədbirləri nəzərdə tutulur. Məcəllədə həmçinin İnzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomanlıqdan müalicəyə ehtiyacı olan şəxslərin məcburi müalicəyə cəlb olunması (İXM 37-ci maddə) ilə bağlı müddəalar da yer alıb. Məcəllənin 33.1.3-cü maddəsinə görə "*yetkinlik yaşına çatmayanların inzibati xəta törətməyə cəlb edilməsi*" inzibati xətaya görə məsuliyyəti ağırlaşdıran hal hesab olunur.

---

21. https://www.nmdk.gov.az/page/post/203/Qanunlar
22. http://www.e-qanun.az/framework/1034
23. file:///C:/Users/Sahib%20M/Desktop/Yuklemeler/1643.pdf
24. http://www.e-qanun.az/framework/10675

Məcəlləinin 212.3-cü maddəsində *"Yetkinlik yaşına çatmayanlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə onların tütündən istifadə prosesinə cəlb edilməsi"*-nə görə cərimə nəzərdə tutulur. Məcəllədə həmçinin yetkinlik yaşına çatmayanların avaralığa cəlb olunmasına görə də cərimə nəzərdə tutulur.

Bir çox ölkələrin, o cümlədən keçmiş Sovet İttifaqı respublikalarının müvafiq qanunvericiliyində bununla bağlı inzibati cəzalar və inzibati tənbeh tədbirləri nəzərdə tutulur. Məsələn, Rusiya Federasiyasının müvafiq Məcəlləsində "**Yeniyetmələrin pivə və spirtli içkilərdən hazırlanan içkilərin və ya uyuşdurucu maddələrin qəbul edilməsinə cəlb etməyə görə**" inzibati məsuliyyət nəzərdə tutulur.

Rusiya Federasiyasının müvafiq məcəlləsində həmçinin valideynlər üçün də məsuliyyət nəzərdə tutulur. Belə ki, "Həddi-büluğa çatmayanların ictimai yerlərdə sərxoş vəziyyətdə görünməsi və ya belə yerlərdə spirtli və ya narkotikli maddələrin qəbulu halında" valideynlər (himayəçi, qəyyum) inzibati məsuliyyətə cəlb olunur.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (189-cu maddə) isə yetkinlik yaşına çatmayanların tərbiyə və təlimi vəzifələrinin valideynlər və ya onları əvəz edən şəxslər tərəfindən üzrlü səbəblər olmadan yerinə yetirilməməsi, o cümlədən *"yetkinlik yaşına çatmayanların spirtli içki, narkotik vasitələr və ya psixotrop maddələr qəbul etməsinə və ya avaralıqla məşğul olmasına, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış uşaqlar tərəfindən cinayət əlamətləri olan ictimai təhlükəli əməlin törədilməsinə və ya on dörd yaşından on altı yaşınadək uşaqlar tərəfindən inzibati xəta əlamətləri olan əməlin törədilməsinə səbəb olduqda*" valideynlər və ya onları əvəz edən şəxslər altımış manatdan yüz manatadək miqdarında cərimə olunurlar.

İnzibati Xətalar Məcəlləsində yeniyetmələrin zərə**rli vərdişlərə, o cümlədən narkotiklərdən istifadəyə həvəsləndirilməsi və cəlb edilməsi, bu məqsədlə onlar arasında təbliğat işlərinin aparılması ilə bağlı, həmçinin valideyn və ya onu əvəz edən şəxslərin səhl**ənkarcasına tərbiyə funksiyalarını yerinə yetirməməsinə görə ayrı inzibati cəza tədbirlərinin nəzərdə tutulması məqsədəuyğun olardı.

İnzibati Xətalar Məcəlləsində həmçinin "Uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericiliyin pozulması"na (maddə 388-2) görə də məsuliyyət nəzərdə tutulur. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunun[25] 1.0.12-ci maddəsinə əsasən "*uşaqların həyatına, fiziki və psixi sağlamlığına təhlükə yaradan, o cümlədən intiharı, odlu silah və partlayıcı maddələrdən,* ***narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarından, alkoqollu və energetik içkilərdən, habelə tütün məmulatlarından istifadəni təbliğ edən*** *informasiya"* uşaqların həyat və sağlamlıqlarına təhlükə yaradan əməlləri təbliğ edən informasiya hesab olunur və belə informasiyaların yayılması məsuliyyət yaradır.

Lakin mövcud praktikada qanunla müəyyən ounmuş bu zərərli informasiyalar qanunsuz olaraq dövr etməkdədir və inzibati məsuliyyət tədbirləri belə informasiyaları dövriyyədə saxlayanlara nisbətdə demək olar tətbiq olunmur və ya adekvat tətbiq olunmur. Bu baxımdan yeniyetmələr arasında zərərli vərdişlərin, həmçinin narkotiklərdən istifadə hallarının çoxalmasında zərərli informasiyaların qanunsuz dövriyyəsinin rolu böyükdür. Sosial şəbəkələr üzərində nəzarətin zəifliyi, məktəblərdə, məhəllələrdə zərəli məlumatların yayılmasına maneənin olmaması nəticəsində yeniyetmələr arasında narkomanlıq, tütünə və alkoqola meyllilik artmaqdadır. Təhsil müəssisələrinin yaxınlığında siqaret, alkoqollu içkilərin satış yerləri

25. http://www.e-qanun.az/framework/40764

qanunla qadağan edilsə belə mövcuddur və bu da yeniyetmələrdə bu zərərli məhsullara həvəsi artırır. **Qanunvericilik bununla bağlı daha effektiv tədbirlər və daha ciddi cəza mexanizmləri nəzərdə tutmalıdır.**

### *4.2.Cinayət təqibi*

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununun 23.1-ci maddəsinə görə “*Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət məsuliyyəti Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulduğu hallarda yaranır”.*

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə görə cəzalar müəyyən olunur. Cinayət Məcəlləsində həmçinin qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə, narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə, qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə, narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama, narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma və güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə cəzalar nəzərdə tutulur.

Cinayət Məcəlləsinə görə **yetkinlik yaşına çatmayanların** bu tipli cinayətlər törətməsinə görə fərqli cəzalar nəzərdə tutulmur, lakin cəza təyin olunarkən şəxsin yetkinlik yaşına çatmaması cəzanı yüngülləşdirən hal kimi nəzərə alınır.

Cinayət Məcəlləsinə 2017-ci ilin oktyabr ayında edilən dəyişikliyə əsasən satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımaya görə həm də alternativ cəza qismində bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması nəzərdə tutulur. Cinayət Məcəlləsində 2017-ci il oktyabr ayında edilən daha bir dəyişikliyə görə “*Yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma*” halına görə d*örd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə* cəzası nəzərdə tutulur. Cinayət Məcəlləsinə bu dəyişikliyin edilməsi mühüm əhəmiyyət kəsb edirdi və yeniyetmə narkomanlığın*ın* qarşısının alınması üçün zəruri dəyişiklik idi.

Cinayət Məcəlləsinin 236-cı maddəsinə görə *“Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə”* üçün cəza nəzərdə tutulur. Həmin maddədə (236.2.3.) bu əməl “*bilə-bilə yetkinlik yaşına çatmayan, iki və ya daha çox şəxs barəsində törədildikdə”* beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 236.3 maddəsində isə göstərilən “əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya başqa ağır nəticələrə səbəb olduqda” daha ağır cəza nəzərdə tutulur.

Göründüyü kimi o cümlədən yeniyetmələrin narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımalarına görə cinayət təqibi, həmçinin yeniyetmələri belə maddələrdən istifadə etməyə (istehlak etməyə) təhrik etməyə görə kifayət qədər sərt cəza nəzərdə tutulur.

Narkotik maddələrin qanunsuz dövriyyəsinə görə cəzalar kifayət qədər sərtdir. Bununla belə Cinayət Məcəlləsinin 59.1.2-c maddəsinə görə “*cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsi”* cəzanı yüngülləşdirən hallar sırasındadır.

**Qeyd olunmalıdır ki, hazırda dünyada yetkinlik yaşına çatmayanlara münasibətdə ən azı narkotiklərin istehlakına görə cinayət cəzasından tam azad edilməsi və alternativ tədbirlərə, o cümlədən sosial reablitasiya tədbirlərinə üstünlük verilməsi ilə bağlı diskussiyalar getməkdədir. Çoxillik müşahidələr onu göstərir ki, narkotik maddələrin qanunsuz dövriyyəsinə görə cinayət təqibinə məruz qalaraq cəzalandırılan yeniyetmələr, xüsusən də azadlıqdan məhrum edilən yeniyetmələrin islah olunması nadir hallarda baş verir. Bu baxımdan əslində cəza öz məqsədinə (məhkumun islah edilməsi) çata bilmir.**

Belə olan halda yetkinlik yaşına çatmayanların istehlak və istehlak miqdarından daha çox narkotik maddə saxlamasına görə ümumiyyətlə cinayət məsuliyyətindən tam azad edilməsi və onlara münasibətdə alternativ tədbirlərin (alternativ cəza yox sosial xarakterli tədbirlər) həyata keçirilməsi daha məqsədəuyğun hesab edilir.

### *4.3.Digər qanunvericilik aktları*

Hazırda qlobal səviyyədə sintetik narkotik maddələrin sürətlə yayılması baş verməkdədir. Yeniyetmələrin bu maddələr vasitəsi ilə təhrik edilməsi daha asandır. Belə ki, sintetik narkotik maddələrin bir çoxu “yüngül” hesab olunur, daha ucuzdur və əldə etmək o qədər də çətin deyil. Mövcud qanunvericilik bu maddələrin dövriyyəsinin qarşısını tam ala bilmir. Bu baxımdan mövcud qanunvericiliyin təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. “*Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında*” Qanun 2005-ci ildə qəbul olunmuş və bu qanuna dəfələrlə əlavələr və dəyişkiliklər edilmişdir. Qanunda yeniyetmələrə (yaşı 18-ə çatmayanlara) münasibətdə ayrı fəsil və ya müddəalar yoxdur.

Yalnız, qanuna 2008-ci ildə edilən dəyişikliyə görə 26.5-ci maddəyə “18 yaşınadək uşaqlar” sözləri əlavə edilmişdir ki, bu da narkomanlığından məcburi müalicə tədbiri ilə bağlıdır.

“Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikası Qanununda “alkoqollu içkilər, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş və ya həkimin təyinatı olmadan narkotik vasitələr və psixotrop maddələr qəbul edənlər” barəsində fərdi profilaktik iş aparılması nəzərdə tutulur. Bununla belə Səhiyyə Nazirliyinin verdiyi məlumata görə belə yeniyetmələr ölkə üzrə 3 nəfərdir[26].

Qanunun icrası məqsədi ilə Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli qərarı ilə “Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası” təsdiq olunmuşdur. Lakin tədqiqat dövründə belə müəssisənin fəaliyyətinə dair məlumat əldə etmək mümkün olmadı. Bütövlükdə bu qanunun tətbiqi ilə bağlı ciddi problemlər mövcuddur və bu baxımdan qanunun yenidən işlənməsi və qanunda nəzərdə tutulan mexanizmlərin yaradılması vacibdir.

Beləliklə narkotik və psixotrop maddələr, onların perekursorlarının dövriyyəsi və qanunsuz dövriyyəsi ilə bağlı qanunvericilik, cinayət və inzibati məsuliyyəti, sosial və tibbi reablitasiya məsələlərini tənzimləyən qanunvericilik müasir tələblərə cavab vermir və xüsusən yetkinlik yaşına çatmayanlara fərqli münasibəti özündə əks etdirmir. Bu baxımdan qanunvericiliyə yenidən baxılması zəruridir.

İstər tibbi və sosial reablitasiya, istərsə də inzibati və cinayət xarakterli cəzaların tətbiqində yeniyetmələrə münasibətdə fərqli yanaşmalar müəyyən edilməlidir. Yeniyetmələrə münasibətdə daha çox sosial reablitasiya və sosial proqramların həyata

26. Səhiyyə Nazirliyinin AQUPDK-nin sorğusu əsasında təqdim etdiyi 03.06. 2021-ci il tarixli 02/19-2212 saylı məktubda verilən məlumat

keçirilməsi, bunlardan daha əvvəl isə narkomanlığın xəbərdar edilməsi, yəni qabaqlayıcı tədbirlərin həyata keçirilməsi zəruridir.

### 4.4.Qanunvericiliyin təkmilləşdirilməsinə dair Azərbaycanın beynəlxalq öhdəlikləri

Azərbaycanın tərəfdar çıxıdığı BMT-nin "Uşaq Hüquqları Haqqında" Konvensiyasında iştirakçı dövlət üzərinə qoyulan öhdəliklərdən biri də "*cinayət qanunvericiliyini pozmuş hesab edilən, onu pozmaqda təqsirləndirilən və ya təqsirli sayılan uşaqlara bilavasitə aidiyyatı olan qanunlar, prosedurlar və müəssisələr yaradılması"* ilə bağlıdır. Cinayət qanunvericiliyində narkotiklərlə bağlı olan (istifadə, əldə etmə, saxlama, daşıma, satmaq, becərmək, hazırlamaq və s.) hissədə uşaqlar üçün cəzalar yaşlılar üçün nəzərdə tutulan cəzalardan fərqlənmir. Alternativ tədbirlər üçün qanunvericilik bazası və tədbirləri təşkil edəcək infrastuktur,o cümlədən uşaqlar üçün nəzərdə tutulan narkodispanserlər, sosial və tibbi reablitasiya müəssisələri yoxdur.

BMT-nin Uşaq hüquqları Komitəsinin Azərbaycanın təqdim etdiyi birgə üçüncü və dördüncü dövri hesabat üzrə yekun qeydlərinin (Əlli doqquzuncu sessiya 16 yanvar - 3 fevral 2012-ci il) 76-cı bəndinın c) yarımbölməsində göstərilir ki, "*18 yaşından kiçik şəxslərin yalnız son vasitə olaraq və ən qısa zaman müddətində azadlıqdan məhrum edildiyini təmin etmək üçün bütün zəruri tədbirlər görülsün. Bu cür tədbirlərə xüsusilə, qanunla ziddiyətdə olan uşaqlar üçün yayındırma mərkəzləri və/və ya hüquqi klinikaların təsis edilməsi də daxil olmaqla, saxlanma cəza növlərinə alternativlərin hazırlanması və onların icra edilməsi daxildir".*

Yuxarıda qeyd olunduğu kimi ölkənin cinayət qanunvericiliyi yeniyetmələr üçün alternativ cəzaları və ya alternativ tədbirləri nəzərdə tutan maddələrə malik deyildir.

Konvensiyanın 31.1. maddəsinə əsasən *"İştirakçı dövlətlər uşağın istirahət və asudə vaxt hüququnu, yaşına uyğun oyunlarda və əyləncəli tədbirlərdə iştirak etmək və sərbəst surətdə mədəni həyatda iştirak etmək və incəsənətlə məşğul olmaq hüququnu tanıyırlar".* Lakin tədqiqatlar göstərir ki, belə yerlər bir çox uşaqlar üçün əlçatan deyildir və ödənişlidir. Dövlət uşaqlar üçün belə yerlərin ödənişsiz təqdim edilməsini təmin etməlidir və ya sosial təminatı aşağı olan kateqoriyalar üçün əlçatanlığı təmin etməlidir.

BMT-nin Uşaq hüquqları Komitəsinin Azərbaycanın təqdim etdiyi birgə üçüncü və dördüncü dövri hesabat üzrə yekun qeydlərində (Əlli doqquzuncu sessiya 16 yanvar - 3 fevral 2012-ci il) Azərbaycanda uşaqlar arasında zərərli vərdişlərin yayılmasından narahatlıq ifadə olunur. Qeyd-şərtlərin 62-ci bəndinin c) yarımbəndində qeyd olunur ki, *"Uşaqlar arasında spirtli içki və tütün qəbulu haqqında sistematik olaraq hərtərəfli informasiyanın toplanması və qeyd olunan məhsulların uşaqlara satışının qadağan edilməsi üçün zəruri tədbirlərin görülməsi; Komitə həmçinin, spirtli içki və tütün məhsullarının uşaqlar tərəfindən ümumi istifadə olunan televiziya, radio, nəşriyyat, İnternet və digər media vasitələrində təbliğatının qadağan edilməsini nəzərdən keçirməyi tövsiyə edir".* Tövsiyənin verilməsindən keçən 9 il müddəti ərzində bu sahədə monitorinq sistemi təşkil olunmamışdır.

Analitik hesabatda qeyd olunduğu kimi yeniyetmələr arasında narkomanlığa meyl əsasən yüngül spirtli içkilərin, tütünün (o cümlədən qəlyan kafelərində tütün məhsullarından istifadə) qəbulundan sonra başlayır. Ümumiyyətlə uşaqların zərərli vərdişlərə, o cümlədən narkomanlığa aludəçiliyinin öyrənilməsi üçün milli monitorinq sisteminin qurulması vacibdir və ölkənin tərəfdar çıxdığı beynəlxalq normaların nəzarət orqanları tərəfindən də tövsiyə edilməkdədir.

## 5. YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA NARKOTİK VƏ PSİXOTROP MADDƏLƏRDƏN İSTİFADƏ GÖSTƏRİCİLƏRİNƏ VƏ PROFİLAKTİK TƏDBİRLƏRƏ DAİR STATİSTİK GÖSTƏRİCİLƏRİN TƏHLİLİ

Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın yayılması, narkotik və psixotrop maddələrdən onların perekursorlarından qanunsuz istifadə hallarının, eləcə də bu halla mübarizə tədbirləri çərçivəsində həyata keçirilən profilaktik tədbirlər, o cümlədən inzibati, cinayət, tibbi, sosial, maarifləndirici və s. tədbirlərə dair rəsmi statistikaya nəzər saldıqda müəyyən edilir ki, mövcud statistik göstəricilərlə real vəziyyət arasında əhəmiyyətli fərqlər mövcuddur. Ümumiyyətlə aidiyyatı orqanlar yalnız inzibati tədbirlər, cinayət təqibi və tibbi-sosial reablitasiyaya cəlb olunma hallarından əlavə hər hansı statistik məlumatları toplamır, ölkə və ayrı-ayrı regionlar üzrə yeniyetmə narkomanlığının yayılmasının miqyasının öyrənliməsi ilə bağlı təhlillər aparılmır. Eyni zamanda yeniyetmə narkomanlığının yayılma və artma səbəbləri, yayılma arealları və yerləri barədə də müfəssəl məlumatlar mütamadi və sistemli şəkildə öyrənilmir.

Təəssüflə qeyd olunmalıdır ki, Azərbaycanda statistik məlumatların toplanmasında əhəmiyyətli rol oynaya biləcək və dünyada geniş tətbiq olunan məktəb tədqiqatları da aparılmır. Belə tədiqiqatlar ciddi metodikaya və etik qaydalara əməl edilməklə təhsil orqanları və müvafiq aidiyyatı orqanlarla birgə təşkil edilməlidir. Bu metodun mənfi cəhəti belə tədiqiqatlar zamanı narkotiklərə dair izafi məlumatlandırma ilə bağlıdır. Bununla belə müsbət cəhət və üstünlük ondan ibarətdir ki, bu metod daha səmərəlidir və daha asan təşkil oluna bilir. Nəzərə alınmalıdır ki, yeniyetmə narkomanlığının yayıldığı əsas yerlərdən biri də məhz təhsil yerləridir.

Hesabatda qeyd olunduğu kimi yeniyetmələr arasında narkomanlığa düçar olunmuşların dispanzerizasiyası olduqca aşağı səviyyədədir. Bunun səbəbləri çoxdur. Qeyd olunduğu kimi latentlik bu halda əsas səbəblərdəndir. Ailələr övladlarının narkotik maddələrdən istifadə etdiyini bildiyi halda bu barədə müvafiq tibbi orqanlara və ya digər müvafiq orqanlara məlumat vermirlər. Digər əsaslı səbəb isə qeyd olunduğu kimi başqa üsullarla narkomanlığa düçar olan uşaqların müəyyən edilməməsidir. Təbii ki, cinayət təqibinin olması da uşaq narkomanlığının üzə çıxarılmasına ciddi mane olan amillərdəndir.

**Səhiyyə Nazirliyinin təqdim etdiyi statistikaya əsasən narkoloji dispanserdə uçotda olan uşaqların sayı 14 yaşında olan uşaqlar arasında 0 göstəriciyə malikdir. Yəni 14 yaşında narkotiklərdən istifadə edən uşaqlara dair Səhiyyə nazirliyində hər hansı məlumat yoxdur və bu yaşda dispanser uçotunda olan yoxdur.**




**15-17 yaş arası qrupda isə ümumi say 9 nəfər təşkil edir ki, onlardan da dispanser qeydiyyatında olanların sayı 6 nəfər, profilaktik qeydiyyatda olanlar isə 3 nəfərdir.**

Səhiyyə Nazirliyinin təqdim etdiyi statistikanın diqqət tələb edən başqa bir məqamı da ondan ibarətdir ki, bu statistikada 9 rayonın adı çəkilir və hər rayonda bir nəfər müəyyən edilmiş narkoman yeniyetmə (15-17 yaş arası) var. Bu inzibati-ərazi vahidləri arasında ölkənin ən böyük şəhərlərinin, o cümlədən Bakı, Gəncə və Sumqayıt şəhərlərinin olmaması da yeniyetmələr arasında

müəyyən edilmiş narkomanlıq hallarının nə qədər real olmadığını aşkar göstərir. Müəyyən olunmuş yeniyetmə narkomanlar Qusar, Ağdaş, Xızı,Mingəçevir şəhəri,Hacqabul, Saatlı, Göyçay, Tərtər və Balakən rayonları üzrə olmuşdur.

Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Üzrə Dövlət Komissiyasının Daimi Fəaliyyət Göstərən İşçi Qrupunun Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsinə təqdim etdiyi statistik göstəricilər də Səhiyyə Nazirliyinin təqdim etdiyi statistik göstəricilərlə üst-üstə düşür.

Təqdim olunan məlumatda göstərilir ki, **"...***15-17 yaş arası qeydiyyatda olan narkotik istifadəçiləri 9 nəfər (onlardan 6 nəfəri dispanser, 3 nəfəri profilaktik qeydiyyatdadır) təşkil edir. O cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə 2019-cu ildə 16-18 yaşadək 14 nəfər, 2020-ci ildə 5 nəfər, 2021-ci ilin 3 ayı ərzində isə 4 nəfər cinayət məsuliyyətinə cəlb olunub"***.**

İşçi qrupun verdiyi məlumata görə **"...** *Penitensiar Xidmətin Tərbiyə müəssisəsində cəza çəkən yetkinlik yaşına çatmayan məhkumların sayı 17 nəfər təşkil edir və onlar arasında narkotik vasitələrdən istifadəyə və qanunsuz dövriyyəsinə görə məhkum olunmuş şəxslər yoxdur".*

İşçi qrupun təqdim etdiyi statistikadan da görünür ki, müvafiq dövlət orqanlarında yalnız barəsində cinayət işi başlanmış və ya məcburi tədbirlərə cəlb edilmiş yeniyetmələr haqqında məlumatlar toplanır ki, bu da ölkədə onlar arasında narkomanlığın yayılmasının real mənzərəsini heç bir halda əks etdirmir. Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin bir qismində statistikanın müəyyən edilməsində tədqiqat metodlarından geniş istifadə edildiyi halda Azərbaycanda bu metodların heç biri tətbiq olunmur.

İşçi qrupun "2021-ci ilin 3 ayı ərzində ölkə üzrə narkotik vasitələrin,psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələrinə dair" arayışında da eyni rəqəmlər göstərilir. Arayışda göstərilir ki, "*Hesabat dövründə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 1071 nəfər cəlb edilmişdir ki, onlardan 16-18 yaşadək 4 nəfər, 18-25 yaşadək 80 nəfər, 26-29 yaşadək 202 nəfər, 30 yaş və ondan yuxarı isə 785 nəfər təşkil edir. Həmin şəxslərdən 1045 nəfəri kişi, 26 nəfəri qadın olmuşdur. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 12 nəfəri xarici ölkə vətəndaşıdır"*[27]

Arayışda yeniyetmələr arasında narkomanlığın yayılmasına qarşı mübarizə və profilaktikası barədə məlumatlar verilmir.

**Narkotiklərdən istifadə edən və onun qanunsuz dövriyyəsinə cəlb olunan yeniyetmələrin ölkə üzrə bütün yeniyetmələrə münasibətdə sayını və ya faiz göstəricilərini faktlar əsasında, məsələn cinayət məsuliyyətinə cəlb etmə, dispanserizasiya göstəriciləri və ya anonim endrokolo-**




27. İşçi qrupun "2021-ci ilin 3 ayı ərzində ölkə üzrə narkotik vasitələrin,psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələrinə dair" arayışından

**ji yardım statistikası əsasında müəyyən etmək mümkün deyildir. Bu məlumatlar yarımçıq məlumatlar hesab olunur və ümumi demoqrafik tədqiqat metodu kimi istifadə oluna bilmir.**

Bu baxımdan hazırda dünyada narkomanlığın yayılma göstəricilərinin, o cümlədən yeniyetmələr və gənclər arasında yayılma göstəricilərini **dolayı qiymətləndirmə** üsullarından istifadə etməklə müəyyən edirlər ki, bu metodlar da əsasən **yerli** və ümumdövlət səviyyəli tədqiqatlardır.

Narkomanlığın yayılma əmsalının dolayı metodlarla öyrənilməsi ilə bağlı Birləşmiş Mİllətlər Təşkilatının Narkotiklər və Cinayətlər üzrə İdarəsinin hazırladığı metodologiyadan[28] istifadə etməklə müxtəlif kateqoriya insanlar, o cümlədən yeniyetmələr arasında narkomanlığın yayılma əmsalını müəyyən etmək mümkündür. Əlbəttə bu metodların tətbiqi nəticəsində əldə edilən statistik göstəricilər tam dəqiq deyildir. Bununla belə mövcud mənzərəni əks etdirmək baxımından qənaətbəxş hesab olunur.

Müvafiq dövlət orqanlarında mövcud olan statistika həmçinin tədqiqat prosesində tətbiq olunan digər alətlər nəticəsində əldə olunan göstəricilərlə üst-üstə düşmür. Məsələn tədqiqat zamanı keçirilən sosioloji sorğu isə yeniyetmə narkomanlığının daha geniş coğrafiyada yayıldığını göstərir. Ölkənin müxtəlif regionlarında yaşayan və təhsil, hüquq-mühafizə, səhiyyə, narkomanlığa qarşı mübarizə və ixtisaslaşmış vətəndaş cəmiyyəti təsisatlarının mütəxəssis və ekspertləri ilə aparılmış dərinləşmiş intervüləri də təhlil edərkən onların qənaətlərinin rəsmi statistika ilə üst-üstə düşmədiyi, yeniyetmələr arasında narkomanlığın əslində daha geniş yayıldığı, lakin bunun latent vəziyyətdə olmasını müəyyən etmək mümkündür.

28. https://www.unodc.org/documents/GAP/GAP%20Toolkit%20Module%202%20Final%20RUSSIAN%2002-60054_E_BOOK.pdf

## 6. YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA NARKOTİK VƏ PSİXOTROP MADDƏLƏRDƏN İSTİFADƏSİ BARƏDƏ SORĞU NƏTİCƏLƏRİNİN TƏHLİLİ

### *6.1.Giriş*

Yeniyetmələr arasında narkotik maddələrdən istifadənin yayılması günümüzün aktual mövzularından birinə çevrilmişdir. Sosial media vasitəsilə açıq-aşkar narkotik yayan satıcılar məhz yetkinlik yaşına çatmayanları asanlıqla hədəfə alır. Azyaşlıların sosial mediadan az nəzarətlə və ya demək olar ki nəzarətsiz istifadəsi narkotiklərin asanlıqla əldə oluna bilməsi imkanını yaradır. Bununla bağlı mediada kifayət qədər yazılar dərc olunur[29]. Reaksiya olaraq, bu yaxınlarda Daxili İşlər Nazirliyi ictimaiyyətə müraciət edib və hər bir sahədə, o cümlədən onlayn mühitdə ictimai xadimlərin, bloqqerlərin, sosial şəbəkə fəallarının və jurnalistlərin anti- narkomanlıq tədbirlərinə dəstək verməsini xahiş etmişdir.

Problemin mövcudluğu danılmaz olsa da, yeniyetmələr arasında narkomanlığın yayılması barədə daha çox tədqiqat aparılmasına ehtiyac vardır. Hər hansı bir problem ilə effektiv **şəkildə mübarizə aparmaq üçün bu problemin yayılma miqyası, yerləri, səbəbləri və nəticələri, həmçinin cəmiyyətin bu barədə rəyi barədə məlumatlar toplanmalıdır. Yalnız məlumat və statistikaya əsaslanaraq, azyaşlılar arasında** narkomanlıq probleminə qarşı düzgün mübarizə siyasətini və ondan irəli gələn fəaliyyət planını qurmaq mümkündür.

Hazırkı hesabat bu cür məlumatı yığmaq üçün həyata keçirilmiş onlayn sorğunun nəticələrinə həsr olunub. İnternet vasitəsilə keçirilən sorğu tədqiqatın yalnız bir komponentidir. Sorğu vasitəsilə əldə olunan məlumatlar, digər mənbələrdən: müsahibələr, mətbuat icmalı, fokus qruplar və s. alınan informasiya ilə tutuşdurulmalı və birlikdə təhlil olunmalıdır.

### *6.2.Metodologiya*

Sorğu 2021-ci ilin may, iyun və iyul aylarında *Google Forms* onlayn proqramı vasitəsilə həyata keçirilmişdir. *Google Forms* tam anonim və email, telefon nömrəsi və heç bir digər şəxsi məlumatı qeydə almadan sorğunu həyata keçirmək imkanını yaradır. Sorğuda, arasında kiçik fərqlər olan 2 cür anketdən istifadə olunmuşdur. Bunlardan biri yaşı 16-17 olanlara uyğun hazırlanmışdır (1-ci qrup iştirakçılar). Digəri isə yaşı 18 və yuxarı olanlar üçün hazırlanmışdır (2-ci qrup iştirakçılar). Verilən suallar arasında böyük fərq olmasa da, dil, söz seçimi baxımından anketlər bir qədər fərqlidir. Sorğunu 2 anket üzrə keçirməkdə məqsəd yeniyetmələrin fikirlərini ayrıca toplayıb təhlil etməkdir, çünki araşdırılan problemdən birbaşa onlar zərər çəkir. 16 yaşı tamam olmamış uşaqlar ara-




29. https://teleqraf.com/news/yasavul/237724.html
https://oxu.az/society/509895
https://az.trend.az/azerbaijan/incident/3443025.html
https://qafqazinfo.az/news/detail/instagramda-bu-sehifeler-aciq-askar-narkotik-satir-328386
https://pressklub.az/?p=94649
http://femida.az/az/news/127737/onlayn-yolla-narkotik-satan-narkokuryerler-tutuldular-fotolar

sında valideynlərin icazəsi olmadan sorğu keçirmək mümkün olmadığından, bu yaş qrupu sorğuya daxil edilməmişdir.

Sorğuya respondentlərinin seçimi “snowball” (“qartopu”) üsulu vasitəsilə aparılmışdır: anket müxtəlif kanallar vasitəsilə yayılmış, öz növbəsində hər yeni iştirakçı öz tanışları arasında anketi yaymışdır (iştirakçı qrupu bir növ qartopu kimi böyüyür). Bu üsul təsadüfi seçimə əsaslanmadığına görə, bu yolla seçilən iştirakçılar ümumi əhaliyə məxsus olan göstəriciləri tam əks etdirməyə bilər. Lakin, pandemiya şəraitində və digər səbəblərdən tam təsadüfi seçməyə əsaslanan üz-bə-üz sorğu aparmaq mümkün olmadığından, qartopu seçmə üsulu hazırkı tədqiqatın məqsədləri üçün ən uyğun hesab olunmuşdur.

Sorğunu cəmi 501 respondent cavablandırmışdır. Bundan 51 nəfər yaşı 16-17 arası olan yeniyetmələr olub ki, onlar 1-ci qrup respondentlərdir. Qalan 450 nəfər isə yaşı 18 və yuxarı olan şəxslərdir ki, onlar 2-ci qrup respondentlərdir.

Coğrafi baxımdan, sorğuda respublikanın 10 iqtisadi rayonundan 7-dən iştirak edənlər olmuşdur. Ən çox iştirakçı sayı Bakı-Abşeron, Gəncə-Qazax və Lənkəran iqtisadi rayonlarından olmuşdur.

Hesabatın növbəti hissələrində sorğuda alınan məlumatlar təqdim olunur. 2 anket arasındakı suallara verilən cavablar çox fərqli olmadıqda nəticələr ümumi şəkildə, fərqli olduqda isə 2 yaş qrupu üzrə ayrı-ayrı verilir.

## 6.3.Respondentlər barədə demoqrafik məlumat

Respondentlərin yaşı, cinsi, sosial-iqtisadi durumu, təhsil səviyyəsi, məşğuliyyəti və yaşadıqları ərazi barədə məlumat sorğu anketinin ümumi bölməsində toplanmışdır. Bu göstəricilər iştirakçıların narkomanlıq ilə bağlı verilən cavablarına təsir edə bilər, və bu səbəbdən respondentlər barədə bu məlumat hesabatın hazırkı hissəsində təqdim olunur.

### 6.3.1.Yaş və cins qrupları üzrə bölgü

Onlayn sorğuda iştirak etmiş 501 respondentlərin nisbətən kiçik hissəsi (51 nəfər) 16-18 yaş arası yeniyetmələrdir (1-ci qrup). Əksəriyyəti (450 nəfər) isə yaşı 18 və ondan yuxarı olanlardır ki (2-ci qrup), onların arasında da 18-25 yaş arası qrup üstünlük təşkil edir. Respondentlərin 46.9% kişi, 53.1% qadındır, bu da ki ümumrespublika göstəricisindən cüzi dərəcədə fərqlidir (49.9% kişi, 50.1% qadın[30]) Respondentlərin yaş qrupları və cins üzrə bölgüsü aşağıdakı qrafikdə verilmişdir.

### 6.3.2.Regionlar üzrə bölgü

Sorğuda Azərbaycanın 10 iqtisadi rayonundan 7-dən respondentlər iştirak etmişdir




30. Dövlət Statistika Komitəsi, 2020 https://www.stat.gov.az/source/demoqraphy/

(Naxçıvan, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın istisna olmaqla). Böyük şəhərlərdən isə təkcə Bakı və ətrafdakı qəsəbələrdən 230, Gəncədən 51, Lənkərandan 39, Sumqayıtdan 21 nəfər sorğuda iştirak etmişdir. Aşağıdakı qrafikdə respondentlərin iqtisadi regionlar üzrə bölgüsü verilmişdir.

### *6.3.3.Məşğuliyyət və təhsil*

Sorğu iştirakçılarına hal-hazırda oxuyub və ya işlədikləri barədə sual verilib. Respon-




dentlərin yarısına qədəri hal-hazırda işləyirlər. 13%-ə yaxını nə oxuyur, nə də işləyir. Qalanları təhsil alır. Yaş qruplarına nəzər salanda, 16-18 yaşlıların əksər hissəsi (74.5%) orta məktəbdə oxuyur, 18-25 yaşlıların əksəriyyəti (52.7%) ali məktəbdə oxuyur, 26-40 yaşlıların çoxusu (79.6%) isə işləyir.

Sorğuda iştirak edənlərin yarısından çoxu (52%) ali təhsillidir. Bu göstərici ümumi ölkə əhalisinin təhsil səviyyəsindən xeyli dərəcədə yüksəkdir (ümumi əhalinin 13.4% ali təhsillidir[31]). Səbəblərdən biri o ola bilər ki, onlayn sorğuda iştirak etmək imkanı və bacarığı ali təhsil səviyyəsi olanlarda daha yüksəkdir.

### *6.3.4.Ailələrinin tərkibi və gəlir səviyyəsi*

Sorğuda iştirak edənlərin yarısından çoxu 3-4 ailə üzvü olan orta ölçülü ailələr-




dəndir, bu da ümumi respublika göstəricisinə uyğundur. Həmçinin, ailələrinin əksəriyyətinin (69,1%) aylıq gəliri 500-2000 AZN arasındadır. Ölkə üzrə aylıq gəlirin orta statistik göstəricisi adam başına 291 AZN-dır, bu da orta ailə üçün 873-1164AZN təşkil edir ki, bu rəqəm sorğu iştirakçılarının gəlir səviyyəsinə yaxındır.

### *6.4.Respondentlərin üzləşdiyi problemlər*

Narkomanlığın **nə dərəcədə insanların**

31. Dövlət Statistika Komitəsi, 2020 https://www.stat.gov.az/source/demography/




**üzləşdiyi digər çətinliklərlə bağlı olduğunu öyrənmək üçün, sorğuda respondentlərin üzləşdiyi ən əsas problemlər barədə sual verilib. 2 respondent qrupuna: yaşı 16-17 və 18-dən yuxarı olanlara fərqli cavab variantları təklif olunub. Cavab variantları arasında bir neçə variant seçmək mümkün olduğundan, bütün cavablar üzrə faizlərin yekun cəmi 100%-dən çoxdur.**

1-ci qrupda olan yeniyetmələrin böyük hissəsi heç bir problemlə üzləşmədiyini qeyd etdilər. Üzləşdikləri problemlər arasında isə boş vaxtın mənasız keçməsi, maddi çətinlik və psixoloji problemlər daha çox qeyd olunub. Bu qrup tərəfindən qeyd olunan əsas problemlər aşağıdakı qrafikdə göstərilmişdir.

2-ci qrupdan olan yaşı 18 və yuxarı olan iştirakçılar üçün isə yekdilliklə ən böyük problem işsizlikdir (74.2%). 18-25 yaş qrupu üçün bu problem xüsusilə kəskindir. Digər bir aktual problem yoxsulluqdur. Maraqlı faktdır ki, narkomanlıq **bütün sadalanan problemlər arasında 3-cü yer tutur: bu qrup respondentlərin 33.8% onu əsas problemlərdən biri hesab edir.**

### *6.5. Narkotik maddələrdən istifadənin yayılması dərəcəsi*

Yeniyetmələr arasında narkomanlığın nə dərəcədə, həmçinin harada və kim tərə-






findən yayılmasını müəyyən etmək üçün sorğuya bir sıra suallar daxil edilib. Bu suallar 1-ci və 2-ci qrup respondentlər üçün bir qədər fərqli qoyulub.

<u>1-ci qrupa (16-17 yaş) verilən suallar:</u>

- *Sizcə, yaşadığınız ərazidə (məhəllə, qəsəbə, kənd) 10-18 yaşlılar arasında narkomanlıq nə dərəcədə yayılıb?*
- *Sizcə, sizin yaşıdlarınız ən çox nəyə görə narkotiklər qəbul etməyə başlayırlar?*
- *Sizcə, sizin yaşıdlarınız narkotik maddələr barədə daha çox haradan öyrənirlər?*
- *Sizcə, sizin yaşıdlarınız adətən birinci dəfə narkotik harada qəbul edirlər?*
- *Sizcə, sizin yaşıdlarınız narkotik maddələri ən çox haradan əldə edirlər?*
- *Yaşı 18 və ondan aşağı olan tanışlarınız arasında narkotik maddə qəbul edən varmı?*
- *Sizə nə vaxtsa narkotik maddə qəbul etmək təklif edilibmi?*
- *Heç narkotik maddə qəbul etmisinizmi?*
- *Hal-hazırda narkotik qəbul edirsinizmi?*
- *Sizi nə vaxtsa narkotiklərin satışına cəlb ediblər?*

<u>2-ci qrupa (18 yaş və yuxarı) verilən suallar:</u>

- *Sizcə, yaşadığınız ərazidə (məhəllə, qəsəbə, kənd) 10-18 yaşlılar arasında narkomanlığın yayılması nə dərəcədə ciddi problemdir?*
- *Tanış, qonşu və ya qohumlarınız arasında narkotik maddə qəbul edən yeniyetmələr (10-18 yaş) barədə eşitmisinizmi?*
- *Sizcə, 10-18 yaşlı yeniyetmələr adətən birinci dəfə narkotikləri harada qəbul edirlər?*
- *Sizcə, 10-18 yaşlı yeniyetmələr narkotik maddələri ən çox haradan əldə edirlər?*
- *Heç narkotik maddə qəbul etmisinizmi?*
- *Hal-hazırda narkotik qəbul edirsinizmi?*

Yeniyetmələr arasında narkomanlığın nə dərəcədə yayılması barədə suala cavab olaraq 1-ci qrupdan (16-17 yaş) olan 51 respondent arasında 35.3%-i bu barədə xəbərdar olmadıqlarını, 31.4% isə yayılma-




dığını qeyd edirlər. Bu yaş qrupunun yalnız 5.9%-i yeniyetmələr arasında narkomanlığın çox yayıldığını qeyd edir. Əksinə, 2-ci qrupdan olan (yaşı 18 və yuxarı) respondentlər problemin ciddi olduğunu düşünür. Belə ki, onların yarısı qədəri yeniyetmələr arasında narkomanlığın çox yayıldığını hesab edir.

İqtisadi regionlar arasında müqayisə apardıqda, Lənkəran, Gəncə-Qazax və Aranda bu suala cavab verən respondentlərin yarısından çoxu yeniyetmələr arasında narkomanlığın yayılmasını çox ciddi problem hesab edir. Dağlıq Şirvanda bu rəqəm ən aşağı olsa belə, bu regiondan respondentlərin sayı az olduğundan bu göstərici çox etibarlı sayılmır.

Yeniyetmələr arasında narkomanlığın yayılması nə dərəcədə ciddi problemdir:

iqtisadi regionlar üzrə




1-ci qrup sorğu iştirakçılarına sual verilib ki, tanış yaşıdları arasında narkotik maddə qəbul edənlər varmı. Bu yaş qrupundan sorğuda cəmi 51 nəfər iştirak edib, onlardan 3 nəfər (6%) bu suala müsbət cavab verib, 6 nəfər (12%) bilmədiklərini bildirib, qalanı isə (82%) mənfi cavab verib.

Bu yaş qrupundan olan sorğu iştirakçılarından 6 nəfərinə (12%) nə vaxtsa narkotiklərdən istifadə etmək təklif olunub. Həmin qrupdan 3 nəfəri isə narkotik satışına cəlb ediblər. 16-17 yaşlı 51 sorğu iştirakçısından yalnız 1 nəfər narkotik qəbul edib.

**16-17 yaşlı sorğu iştirakçılarının narkotik qəbulu barədə verilən suallara cavabları (N=51)**




Bənzər suallar 2-ci qrup respondentlərə də verilib. Bu qrup respondentlərin sayı xeyli çox olduğundan, nəticələr də daha etibarlı sayıla bilər. Yaşı 18 və yuxarı olan iştirakçılardan 50%-i tanış, qonşu və ya qohumlar arasında 10-18 yaşlıların narkotiklərdən istifadə etməsi halları barədə bir və ya bir neçə dəfə eşidib, 14%-i isə çox eşidib. Yalnız 36%-i bu barədə eşitməyib. Bu suala ən çox müsbət cavab Aran və Bakı-Abşeron iqtisadi regionunda verilib. Kişi respondentlərin 69%-i, qadınların isə cəmi 59%-i bu barədə eşidib. Bu yaş qrupu respondentlərinin 4% nə vaxtsa narkotik maddə qəbul etdiyini qeyd edib.




**<u>Yaşı 18 və yuxarı olan</u> sorğu iştirakçılarının narkotik qəbulu barədə verilən suallara**












**cavabları (N=450)**

Narkotik maddələrin qəbulu ilə bağlı verilən suallardan əlavə, sorğu iştirakçılarına yeniyetmələrin narkotiklərə cəlb olunması və satışının əsasən harada baş verdiyi barədə sual verilib. Həm narkotiklər barədə öyrənmək, həm onları əldə etmək və qəbul etmək məkanları arasında ən çox məhəllə, küçə, dostlarla bir yerdə olan əyləncə məclisləri qeyd olunur. Sosial şəbəkələr və internet daha gənc respondentlər tərəfindən daha




tez-tez qeyd olunur.

**<u>16-17 yaşlı</u> sorğu iştirakçılarının narkotik qəbulu barədə verilən suallara cavabları (N=51)**

**<u>Yaşı 18 və yuxarı olan</u> sorğu iştirakçılarının narkotik qəbulu barədə verilən suallara cavabları (N=450)**

***6.6. Narkomanlığın*** səbəbləri və nəticələri barədə

Sorğu iştirakçılarına narkomanlığa **cəlb olunmasının səbəbləri barədə sual verildi. Respondentlərin böyük hissəsi əsas səbəb kimi** *dost və tanışların təzyiqi və onlardan geri qalmamaq üçün* (53.3%), həmçinin yeni *bir şeyi sınamağa maraq, həvəs* (49.7%) qeyd edib. Bir çox iştirakçı həmçinin səbəblərdən biri kimi valideyn məsuliyyətsizliyi və biganəliyini qeyd edib (49.7%). Narkomanlığın **səbəbi kimi ailədə mövcud olan problemlər, zorakılıq və digər problemləri hesab edənlərin payı nisbətən azdır.**

Narkotik maddələrin qəbulu nəticəsində









yaranan problemlər barədə müxtəlif yaş qrupları olan iştirakçıların fikirləri ox**şardır. Ən əsas nəticə sağlamlıql**a bağlı yaranan ciddi problem və narkotik asılılıqdır. Digər qeyd olunan problemlər növbəti qrafikdə göstərilmişdir.

### *6.7. Narkomanlığın qarşısının alınması*

Yeniyetmələr arasında narkomanlığın qarşısının alınması ilə bağlı 2 sual verilmişdir.

Birinci sual o idi ki, bu sahədə hansı addımlar atılmalıdır. İştirakçıların böyük hissəsi düşünür ki, *yeniyetmələrin boş vaxtlarının mənalı keçirməsi üçün imkanlar yaratmaq* əsas atılmalı olan addımdır. Digər vacib addımlar isə məktəb, media vasitəsilə məlumat yaymaq, psixoloji dəstək vermək hesab olunur.

**İkinci sual o idi ki, 10-18 yaşlılar ara-**







sında narkomanlığın qarşısının alınmasında ən əsas rolu kim oynamalıdır. Ən çox qeyd olunan cavab ailə olmuşdur (34.7%) Daha sonra "hamısı" cavabı (22%), və hökumət qurumları (20%) qeyd edilmişdir.

### *6.8.Sorğunun əsas nəticələrinin xülasəsi*

- **İştirakçıların yaşadıqları yerdə insanların üzləşdiyi əsas problemlər arasında 3-cü ən çox sadalanan problem narkomanlıqdır** (işsizlik və yoxsulluqdan sonra).
- Sorğu iştirakçıları arasında narkotik qəbul etdiyini qeyd edənlərin sayı




cüzidir, lakin yeniyetmələr arasında narkomanlığın yayıldığını **ciddi problem** hesab edənlərin sayı yüksəkdir (respondentlərin yarısına yaxın).

- **Aran, Gəncə-Qazax və Lənkəran** iqtisadi regionlarında yeniyetmələr arasında narkomanlığın yayılmasını ciddi problem hesab edənlərin sayı daha çoxdur.

- Yaşı 18 və yuxarı olan respondentlərin 64%-i tanış və yaxınlar arasında **narkotik qəbul edən yeniyetmələr** barədə eşidib.

- **İştirakçıların böyük əksəriyyəti belə hesab edir ki, yeniyetmələr narkotikləri dostlarla birlikdə olan əyləncə məclislərində qəbul edirlər və onları ən** çox satışını həyata keçirən kənar şəxslərdən, həmçinin **məhəllədən, küçədən** əldə edirlər.

- Respondentlərin fikrinə görə, yeniyetmələr narkotiklərin qəbuluna daha çox hər hansı çətinlik, problemlərlə üzləşdiyinə görə deyil, **dost və tanışlardan geri qalmamaq üçün, yeni bir şeyi sınamaq həvəsi ilə** və ya **əyləncə axtarışında** başlayır. **Valideynlərin məsuliyyətsizliyi və ya biganəliyi** də əsas səbəblərdən biri kimi qeyd edilmişdir.

- Narkomanlığın **fəsadları arasında iştirakçılar tərəfindən ən çox qeyd olunan sağlıqla bağlı ciddi problemlər, narkotik asılılıq və psixoloji problemlər** olmuşdur.

- Yeniyetmələr arasında narkomanlığın yayılmasının qarşısını almaq üçün ən mühüm addımlar arasında ən çox **yeniyetmələrinin boş vaxtlarının mənalı keçirilməsi üçün imkanlar yaratmaq, təhsil ocaqlarında məlumat yaymaq, və psixoloji yardım göstərmək** qeyd olunmuşdur.

- **İştirakçıların rəyinə görə, problemin qarşısının alınmasına ən böyük rolu ailə**, sonra isə **dövlət orqanları** oynamalıdır.

## 7.DƏRİNLƏŞMİŞ İNTERVÜLƏRİN NƏTİCƏLƏRİ

| Ekspertin fəaliyyət göstərdiyi sahə və ya vəzifəsi | İntervüyə cəlb edilmiş ekspertlərin sayı |
|---|---|
| Təhsil sahəsində (orta məktəb direktoru və müəllimlər) | 3 nəfər |
| Uşaq hüquqları üzrə ixtisaslaşmış və ya uşaq və yeniyetmələrə yönələn fəaliyyətlər həyata keçirən qeyri-hökumət təşkilatları təmsilçiləri | 3 nəfər |
| Qadın hüquqları, məişət zorakılığı və insan alveri ilə mübarizə sahəsində ixtisaslaşmış qeyri-hökumət təşkilatları nümayəndələri | 6 nəfər |
| Regionlarda fəaliyyət göstərən təlim və resurs mərkəz və ixtisaslaşmış QHT nümayəndələri | 7 nəfər |
| Hüquq-mühafizə orqanlarında aidiyyatı üzrə ixtisaslaşmış qurumun nümayəndəsi | 1 nəfər |
| Səhiyyə sistemində aidiyyatı sahə üzrə ixtisaslaşmış qurumun nümayəndəsi | 1 nəfər |
| Narkotiklərlə mübarizə üzrə ixtisaslaşmış qurumun nümayəndəsi | 1 nəfər |

Tədqiqat prosesində 22 nəfər ekspert və mütəxəssislə dərinləşmiş intervülər aparılmışdır. Ekspertlərin seçimi həm aid olduğu sahələr (təhsil, elm, dövlət sektoru, QHT və s.) həm də coğrafi amillərə əsaslanmışdır. Ekspertlərin tərkibi aşağıdakı kimi olmuşdur:

### *7.1.Dərinləşmiş intervü zamanı istifadə edilən əsas suallar*

***Sizin qənaətinizə görə Azərbaycanda narkomanlığın genişlənməsi, o cümlədən yeniyetmələr və gənclər arasında narkomanlıq*** bəlasına düçar olanların artımını şərtləndirən səbəbləri hansılardır? Sualına ekspertlərin bir neçəsi səbəblər sırasında valideynləri göstərirlər. Onlardan bir qismi valideynlərin uşaqların tərbiyəsi ilə məşğul olmaması, uşaqların davranışlarına yaxşı nəzarət etməməsi ilə bağlasa da, bir qismi valideynlərin çətin həyat şəraitində olması, qazanc əldə etməyə daha çox vaxt sərf etməsi ilə əlaqələndirirlər. Ekspertlərin bu arqumentlərini gücləndirən əsasən bir çox valideynlərin işləmək üçün uzun müddət ailəni tərk edərək ya daxili, ya da xarici əmək miqrasiyası etməsidir. Xüsusən ata valideyn regionlardan şəhərlərə iş üçün gəlir və uzun müddət evə qayıda bilmir, yaxud yalnız ay ərzində bir neçə dəfə qayıda bilirlər. Həmçinin işləmək üçün ölkəni tərk edən valideynlər də vardır ki,bəzən illərlə ailələri ilə bilavasitə təmasda ola bilmirlər. Ölkənin cənub regionundan olan və intervü-

| ! Problem | ? Sual |
| --- | --- |
| Yeniyetmələr arasında narkomanlıq yayılır və genişlənir | Sizin qənaətinizə görə Azərbaycanda narkomaniyanın genişlənməsi, o cümlədən yeniyetmələr və gənclər arasında narkomaniya bəlasına düçar olanların artımını şərtləndirən səbəbləri hansılardır? |
| Məktəb və məhəllə idmanı lazımi səviyyədə təşkil olunmayıb. Məhəllələrdə idman meydançaları zəbt olunub | Sizcə məktəb və məhəllə idmanının vəziyyəti necədir? Məktəb və məhəllə idmanının inkişafı yeniyetmələrin zərərli vərdişlərə meyl etməməsi üçün effektiv vasitə ola bilərmi? |
| Yeniyetmələrin ən çox olduğu yerlərdə və virtual məkanda qabaqlayıcı tədbirlər effektiv deyil | Yeniyetmələr arasında zərərli vərdişlərin artmaması üçün daha nə edilməlidir? Məktəblərdə, cəmiyyətdə, mediada və sosial şəbəkələrdə hansı işlər görülməlidir və necə? |
| Regionlarda və iri olmayan şəhərlərdə yeniyetmə və gənclərin asudə vaxt keçirmələri üçün şərait yoxdur, yaxud belə yerlər pulludur | Regionlarda mövcud olan asudə vaxt yerlərinin sayı kifayət qədərdirmi? Regionlarda gənclərin asudə vaxtının təşkili, idman qurğularına əlçatanlığı necə təmin olunub? |
| Yeniyetmələrə münasibətdə repressiv üsullar nəticəvi deyil. Cəza islah olunmada effektiv vasitə deyil | Narkotiklərdən istifadənin qarşısının alınması üçün yeniyetmələrə cəza verilməsinə, o cümlədən cinayət məsuliyyətinə cəlb edilməsinə münasibətiniz necədir? Repressiv mübarizə üsulu faydalıdırmı? |
| Yeniyetmələrin zərərli vərdişlərə, o cümlədən narkomanlığa meyl etməsinin səbəbləri öyrənilmir | Yeniyetmələrin zərərli vərdişlərə, o cümlədən narkotiklərə meyl etməsinin səbəbləri barədə fikirləriniz |
| Yeniyetmələrin narkomanlığa meyl etməsi və düçar olması ən çox olduqları sosial mühitlə bağlıdır | Sizcə yeniyetmələrdə zərərli vərdişlərə meyl etmək əsasən harda yaranır? Məktəbdə, məhəllədə, sosial şəbəkədə və ya başqa bir yerdə? Fikirlərinizi necə əsaslandıra bilərsiz? |
| Bəzən anti-narkomaniya tədbirləri, o cümlədən antireklamlar, rəy sorğuları yeniyetmələr arasında narkotik vasitələrə dair məlumatlılığı artırır və bu da sonradan həmin şəxslərin bir qisminin narkomanlığa meyl etməsinə gətirir | Belə oturuşmuş fikirlər var ki, anti-narkomaniya təbliğatı əks effekt verir və xüsusən yeniyetmələr arasında narkotiklərə marağı artırır? Sizcə belədirmi? |
| Yerli və milli xüsusiyyətlər də nəzərə alınmaqla nakotiklərdən istifadənin qarşısının alınması üçün effektiv vasitələr yoxdur | Yeniyetmələr arasında zərərli vərdişlərin, o cümlədən nakotiklərdən istifadənin qarşısının alınması üçün effektiv vasitələr varmı? Varsa fikrinizcə bunlar hansı vasitələrdir? |

yə cəlb edilmiş ixtisaslaşmış QHT rəhbəri öz intervüsündə səbəb kimi "...*sosial-iqtisadi durumun, xüsusilə də işsizliyin kifayət qədər olması valideyn nəzarətsizliyini də şərtləndirən əsas amillərdən biridir ki, bunun da nəticəsində narkomanlıq problemi genişlənməkdə və artmaqda davam edir"* fikrini bildirmişdir. Bu qənaətə oxşar qənaəti Bakı şəhərində orta məktəb direktoru olan intervüyə cəlb edilmiş şəxsin də fikirlərində rast gəlmək olur. O bildirir ki, *"...ailənin minimum ehtiyacını ödəmək üçün gün ərzində işdə olan valideynlər obyektiv səbəbdən nəzarət imkanlarını itirirlər*".

Ekspertlərin qənaətinə görə bir çox ailələrdə sağlam mühitin olmadığı, məsələn məişət zorakılığının olduğu ailələrdə böyüyən uşaqlar da risk qrupuna aiddir. Sağlam münasibətlər olmayan ailələrdə uşaqlar baxımsız qalır və pis təsirlərin altına düşmə riskləri çoxalır. Bununla bağlı Bakı şəhərində fəaliyyət göstərən orta məktəbin direktoru bu fikiri irəli sürür: "...*bəzi hallarda valideynlər özləri düzgün həyat tərzi yaşamırlar və bu da övladlarına sirayət edir. Məktəb rəhbəri kimi təcrübəmə əsaslanaraq deyə bilərəm ki, övladının yanlış davranışı ilə əlaqədar valideyni məktəbə dəvət edib tanış olduqdan sonra həmin şagirdlə (övladı ilə) birlikdə valideyn üzərində tərbiyəvi iş aparmaq barədə qərar qəbul etdiyim hallar olmuşdur*".

Ölkədə fəaliyyət göstərən və uşaq hüquqları üzrə ixtisaslaşmış aparıcı QHT-lərdən birində fəaliyyət göstərən ekspert də valideyn amilinə oxşar yanaşma təqdim edir. O intervüsündə aşağıdakı səbəbləri göstərir:

"*psixi problemləri olan və ya asılılığı olan valideynlərin olduğu xaotik ailələr; düzgün olmayan tərbiyə üsulları; valideyn və uşaq arasında bağlılıq və sevgi əskikliyi".*

İxtisaslaşmış qurumlardan birinin məsul əməkdaşının qənaətinə görə yeniyetmələr arasında narkomanlığın yayılmasının əsas səbəbi *"...internet üzərində narkotik maddələr haqqında narkodilerlər tərəfindən təbliğatın yeniyetmə və gənclər arasında bu maddələrə qarşı marağı artırır. Asudə vaxtını düşügün qura bilməyənlər bu təsirlərin altına daha tez düşür".*

Uşaq hüquqları və uşaqlara yardım üzrə ixtisaslaşmış qeyri hökumət təşkilatlarından birinin nümayəndəsinin də fikirləri təxminən ixtisaslamış dövlət qurumunun məsul əməkdaşının fikirləri ilə üst-üstə düşür. Həmin ekspert intervüdə göstərir ki, "*Son illər məhəllələrdə idmanın inkişafı üçün işlər aparılır, uşaqlar üçün idman meydançaları, əyləncə yerləri tikilir və yaşadığı ərazi üzrə hər bir uşaq və yeniyetmə bundan istifadə edir. Lakin bu hər bir yerdə mövcud deyil, hələ də geniş fəaliyyətə ehtiyac vardır. Təəssüfki məktəbdə idmanla məşğuliyyət 0 dərəcədədir. Umumiyyətlə yeniyetmələr bu məşğələlərə cəlb olunmurlar , bir çox məktəbdə isə idman zalları (açıq havada və qapalı) yoxdur".*

Narkomanlıqla mübarizə üzrə ixtisaslaşmış qurumun mütəxəssisi yeniyetmələr arasında narkomanlığın yayılmasını həm də "*Yeniyetmə və gənclərdə maraq, bəlli sərhədləri aşmaq istəyi, qanunları pozmaqdan zövq alma hissi, duyğusal boşluq və psixoloji dözümlülük səviyyəsinin aşağı olması"* ilə əlaqələndirir.

Ekspertlərdən biri göstərir ki, "*Narkomanlığa qarşı təbliğat maşını olduqca zəif işləyir. TV və radiolarda eləcə də mətbu orqanlarda bu haqda informasiyalar yox səviyyəsindədir. Narkomanların hekayələri paylaşılmalıdır*".

İxtisaslaşmış QHT-lərdən birinin rəhbəri öz intervüsündə səbəb kimi "*Azərbaycanda narkomanlığın genişlənməsinin əsas səbəblərindən biri yeniyetmələrin istədikləri arzu və istəklərinə sahib ola bilməmələridir. Başqalarında gördüklərini əldə edə bilməyənlər* pis vərdiş dalınca qaçmaqdan çəkinmirlər. Bir çox halda fikirdən, stresdən buna aludə olanlar olur. Düzgün olmayan dost seçimi də buna misal ola bilər*".*

Ölkənin şimal-qərb regionunda yaşayan və fəaliyyət göstərən QHT rəhbəri öz intervüsündə səbəb olaraq bunları göstərir: "*Məktəblərdə psixoloqların azlığı (demək olar ki, məktəblərdə ixtisaslı psixoloqlar 20% təşkil etmir), uşaqlarla daim danışıqların aparılmaması. Xüsusən məktəblərdə utancaq, özünəqapanan və nəzarətdən tez çıxan uşaqlara diqqətin yetirilməməsi*".

Lakin ekspert və mütəxəssislər digər səbəblər də göstərirlər ki, bunlar ümumiləşmiş şəkildə aşağıdakılardan ibarətdir:

Maarifləndirmə işlərinin yetərli olmaması;

Pandemiyanın yaratdığı ümidsizlik və pessimizm;

Cəmiyyət münasibətlərinin daha çox virtuallaşması və gənclərin tənhalıq hisslərinin artması;

Təhsilin günün tələblərinə cavab verməməsi və yeni tədris mexanizmlərinin tətbiq edilməməsi;

Məktəblərdə əmək vərdişləri bacarıqlarına yönəlik fəaliyyətlərin olmaması;

Sosial şəbəkələr üzərindən gənclərə yönəlik müxtəlif trendlərin yaradılması yolu ilə cəlb edilməsi;

Gənclərin ictimai mədəni tədbirlərə cəlb edilməməsi;

Təhsildən yayınma. Uşaqların xüsusən yuxarı siniflərdə məktəbə demək olar ki getməməsi;

Uşaqlar və gənclər üçün idman və müxtəlif əyləncə fəaliyyətlərinin həyata keçirilməsi üçün uygun şəraitin olmaması;

Təhsil sistemində uşaqların sosial bacarıqlarının ikişafına yönəlik fəaliyyətlərin olmaması;

Dərs yüklərinin həddindən artıq agır və bezdirici olması;

Uşaqların idmanla məşgul olması, müxtəlif idman seksiyalarına istiqamətləndirilməsi üçün ailələrin imkanlarının olmaması;

Uşaq və gənclərin öz potensiallarını realizə etmək imkanlarının olmaması;

Məktəblilər arasında müxtəlif sintetik həblərin qəbul edilməsi hallarının artması.

***Sizcə məktəb və məhəllə idmanının vəziyyəti necədir? Məktəb və məhəllə idmanının inkişafı yeniyetmələrin zərərli vərdişlərə meyl etməməsi üçün effektiv vasitə ola bilərmi?*** Sualına cavab verən ekspert və mütəxəsislərin cavabları da əksəriyyət ekspertlər və mütəxəsislər hesab edir ki, yeniyetmələr arasında narkomanlığın yayılmasının qarşısının alınmasında ən effektiv vasitələrdən biri də asudə vaxtın təşkili, xüsusən də idmanın müxtəlif növləri ilə məşğul olmaqdır. Lakin intervüyə cəlb olunanların əksəriyyəti məktəb və məhəllə idmanının vəziyyətinin qənaətbəxş olmaması fikrindədir. Bakı şəhərinin orta məktəb direktorlarından birinin bununla bağlı fikirləri belədir ki, "*Hətta təmirli məktəblərin də mütləq əksəriyyətində bir idman zalı vardır ki, bu da çoxsinifli ümumtəhsil müəssisələrində cədvəli düzgün tənzimləməyə imkan vermir*". Direktor qeyd edir ki, "*digər məsələ valideynlərin, eləcə də bəzi hallarda pedaqoji işçilərin və şagirdlərin fiziki tərbiyə fənninə ikinci dərəcəli predmet kimi münasibətidir. Sonuncu hal heç də təsadüfi səciyyə daşımır. Məsələn, indiyədək yüksək idman nailiyyətinə görə hansısa şagird qızıl və ya gümüş medala layiq görülməmişdir (təlim nəticələri əla olsa da). Yüksək idman nailiyyətinə görə (eləcə də digər mədəni, sosial fəaliyyətinə görə) fərqlənmiş, lakin qeyri-idman profilli ixtisaslar seçən şagirdlərə (və ya məzunlara) heç bir güzəşt edilmir*". Məhəllə idmanının vəziyyəti ilə bağlı da orta məktəb direktorunun fikirləri bu sahədə vəziyyətin yaxşı olmadığından xəbər verir. O qeyd edir ki, "*məhəllə idmanının səviyyəsi kifayət qədər aşağıdır, ən bəsit səbəbdən – sadəcə məhəllələrin mütləq əksəriyyətində yer yoxdur*". Bakı şəhərinin qəsəbələrindən birində orta məktəb

direktoru da təxminən bu qənaətləri bölüşür, amma onun fikirlərinə görə şəhər ətrafı qəsəbələrdə məhəllə idmanının vəziyyəti kafidir.

Ölkənin şimal regionunu təmsil edən ixtisaslaşmış QHT rəhbəri də qeyd edir ki, "*Hal-hazırda regionlarda bu istiqamətdə vəziyyət ürəkaçan deyil... Yaxşı olardı ki, məhəllərdə kiçik idman meydançaları yaradılaraq pulsuz olaraq gənclərin istifadəsinə verilsin".*

Regionlardan intervüyə cəlb edilən ekspert və mütəxəssislərin əksəriyyətinin yaşadıqları və fəaliyyət göstərdikləri şəhərlərdə müasir olimpiya kompleksləri mövcud olsa da onlardan heç biri bu komplekslərdən yeniyetmələrin istifadə etməsinə dair fikir söyləməyib. Məlum olur ki, bu komplekslərin əksəriyyəti epizodik istifadə olunur və yeniyetmələr üçün əlçatan deyil. Ölkənin cənub regionundan olan ekspert qeyd edir ki, "*təəssüflər olsun ki, idman sahəsində bir çox fəaliyyətlər olsa da hər biri ödənişli olduğu üçün bir çox aztəminatlılar üçün əlçatan deyil".* Cənub regionundan olan digər QHT rəhbəri də məhəllə idmanının zəif olması qənaətindədir və məktəb və məhəllə idmanının olmasını zəruri hesab edir.

Ölkənin şimal-qərb və dağlıq regionlarını təmsil edən ekspert və QHT rəhbərləri də məktəb və məhəllə idmanının zəif olmasının bu səbəbdən yeniyetmələrin əsas vaxtlarını internetdə (planşet, smartfon və s.) keçirmələrini göstərirlər. Qeyd olunur ki, *"Məktəblərin demək olar ki, 60-70%-dən çoxunda idman zalları yoxdur. Olanlar da bərbad bir vəziyyətdədir. Məhəllələrdəki futbol stadionları və yaxud digər idman oyunları üçün nəzərdə tutulan ərazilərin daha çox hissəsi bələdiyyələr tərəfindən satılmışdır. Yeniyetmələrin və gənclərin idmanla məşğul olmaq üçün imkanları məhdudlaşdırılmışdır. Bələdiyyələr tərəfindən bu istiqamətdə işlərin görülməsi çox aşağı vəziyyətdədir".*

Aidiyyatı dövlət orqanlarını (polis, səhiyyə və narkomanlıqla mübarizə üzrə orqanın məsul əməkdaşları) təmsil edən məsul əməkdaşlar intervü zamanı oxşar mövqe nümayiş etdirmişdir. Belə ki, hər üç orqanı təmsil edənlərin qənaətinə görə yeniyetmələrin asudə vaxtının səmərəli təşkili onların zərərli vərdişlərə, o cümlədən narkomanlığa meyl etməsinin qarşısını alardı. Həmçinin bu orqanları təmsil edən şəxslər məktəb və məhəllə idmanının inkişafı üçün tədbirlərin görülməsini zəruri hesab edirlər.

Gəncədə QHT rəhbəri olan ekspert qeyd edir ki, "*hətta idman zalları, açıq havada idman meydançaları olan məktəblərdə belə idman yarışları, idman tipli əyləncəli yarışlar təşkil olunmur. Mövcud qurğular istifadəsiz qalıb və məktəblərdə idmana və əyləncəli-məlumatlandırıcı oyunlara maraq yaradılmır. Pandemiya isə onsuz da yaxşı təşkil olunmayan məktəb idmanının ümumiyyətlə dayanmasına gətirib".*

İntervüyə cəlb edilən digər ekspertlər və mütəxəssislər də məktəb və məhəllə idmanının vəziyyətinin acınacaqlı olmasını qeyd etmişdir. Eyni zamanda bütün ekspert və mütəxəssislər məktəb və məhəllə idmanının yeniyetmələrin zərərli vərdişlərə, o cümlədən narkomanlığa meyl etməsinin qarşısının alınmasında ən effektiv vasitələrdən biri kimi qeyd edirlər.

Məktəb və məhəllə idmanının vəziyyəti ilə bağlı ölkənin əksəriyyət regionlarını təmsil edən ekspert və mütəxəssislərin rəyləri bir-birinə yaxındır. Onların qənaətlərini ümumiləşdirərkən aşağıdakı ümumi fikirlər formalaşır:

-Məktəblərin bir çoxunda ümumiyyətlə idman və əyləncəli-məlumatlandırıcı oyunlar üçün şərait yoxdur. İdman zalları, meydançalar ya yoxdur, ya da təyinatı üzrə istifadə olunmadığı üçün sıradan çıxıb (məsələn idman zalları anbar kimi istifadə olunub, açıq meydançaları kol və ya ot basıb və s.);

-İdman və əyləncəli-məlumatlandırıcı oyunların təşkili üçün yaxşı və ya minimal şəraiti olan müasir məktəblər də vardır, lakin həmin məktəblərdə idman və ya digər əyləncə və məlumatlandırıcı xarakterli oyunlar (yarışlar) ya təşkil olunmur, yaxud epizodikdir. Məktəblərarası idman yarışları təşkil edilmir. Pandemiya dövründə isə ümumiyyətlə idman dərsləri unudulub.

-Məhəllə idmanı üçün şəhərlərdə şərait demək olar ki, yoxdur. Yalnız son dövrlərdə bəzi məhəllələrdə həyətlərin abadlaşdırılması nəticəsində azyaşlı uşaqlar üçün bəzi qurğular quraşdırılıb. Lakin məhəllə futbolu və digər aktiv idman oyunları üçün şərait ya yoxdur, ya da məhduddur. Kənd və qəsəbələrin də əksəriyyətində əvvəllərdə mövcud olan idman meydançaları pay torpaqlar şəkilində və ya digər formada özəlləşdirilib və ya təyinatı dəyişdirilib. Hazırda kənd və qəsəbələrdə əvvəllərdə mövcud olan ənənəvi həyət oyunları, idman oyunları yox dərəcəsindədir;

-Sosial şəbəkələr, smart telefonlar (planşetlər) aktiv idman oyunlarını arxa plana keçirib. İntervüyə cəlb edilənlərin əksəriyyəti yeniyetmələrin passiv və bir çox hallarda zərərli olan bu məşğuliyyətdən (asudə vaxt keçirməkdən) uzaqlaşdırması üçün aktiv və intellektual idman növlərinin inkişafını vacib hesab edirlər. Bunun üçün ilk növbədə məktəblərdə mövcud olan idman qurğularından səmərəli istifadə edilməli, idmanla bağlı tədrisin keyfiyyəti artırılmalı, həmçinin məhəllələrdə idman oyunlarının təşkili üçün minimal şəraitin yaradılması ilə bağlı yerli icra hakimiyyəti və yerli özünüidarə orqanları üzərinə konkret vəzifələrin qoyulması zəruridir.

***Yeniyetmələr arasında zərərli vərdişlərin artmaması üçün daha nə edilməlidir? Məktəblərdə, cəmiyyətdə, mediada və sosial şəbəkələrdə hansı işlər görülməlidir və necə?*** sualına cavab verən ekspertlərin və mütəxəssislərin əksəriyyəti düzgün maarifləndirmə və məlumatlandırma işlərinin qurulmasını, problemli ailələrdən olan uşaqlarla daha ciddi işlərin aparılmasını, məktəblərdə narkomanlıq əleyhinə sistemli profilaktik və maarifləndirici tədbirlərin həyata keçirilməsini, sosial şəbəkələr və internet üzərindən yayılan zərərli məlumatların qarşısının alınmasını, müvafiq ixtisaslaşmış orqanların, o cümlədən yerli icra hakimiyyəti orqanlarının müvafiq qurumların işinin müasir çağırışlara uyğun qurulmasının, şosial reklam vasitələrindən geniş istifadənin, o cümlədən televiziyalarda sosial reklamların və xüsusi verilişlərin yayımlanmasını vacib hesab edirlər.

Qəbələdən intervüyə cəlb edilmiş ekspert qeyd edir ki, "*Yeniyetmələr ilə müntəzəm maarifləndirmə işləri aparılmalı, onların asudə vaxtları maraqlı tədbirlərlə doldurulmalı, zərərli vərdişlərin pis nəticələrini əks etdirən süjetlər çəkilməli, uğurlu gənclərin həyat hekayələrinə həsr olunmuş videoçarxlar yayımlanmalıdır".*

Cənub regionunu təmsil edən ixtisaslaşmış QHT rəhbəri isə dövlət orqanları tərəfindən həyata keçirilən profilaktik tədbirlərin, o cümlədən maarifləndirmə tədbirlərinin formal olmasını, benefisiant qrupunun düzgün seçilməməsini qeyd edir. Doğrudan da bir sıra aidiyyatı dövlət qurumları narkomanlığa qarşı mübarizə tədbirlərini hesabat hazırlamaq üçün edirlər və onların bu istiqamətdəki işləri nəticəvi olmur.

Gəncə şəhərində yaşayan və fəaliyyət göstərən ixtisaslaşmış QHT rəhbəri də profilaktik tədbirlərin düzgün qurulmadığı qənaətindədir. O intervüsündə qeyd edir ki, "*Düzgün maarifləndirmə aparılmalıdır. Elə etmək lazımdır ki, məhz risk qrupları maariflənsinlər. Daha çox güclü insanlar, uğurlu insanlar və onların həyat hekayələri təbliğ edilməlidir. Yeniyetmələrin maraqları öyrənilməlidir. Cəmiyyət ailədən başlamış universitetə qədər bu işlər davamlı olmalıdır".*

Bakı şəhərindəki orta məktəbin direktoru başqa bir problemi qabardır. O qeyd edir ki, "*Uşaqların izafi yükdən azad olunması,*

*tədris planlarında, dərs saatlarında və fənn proqram materiallarında ciddi dəyişiklik və ixtisarlar aparılması zəruridir. Fikrimcə, yaş metodikasına uyğun hazırlanmamış dərsliklər, tələblər şagirdlərdə ciddi (şüuraltı) özünəinamsızlığa səbəb olur. Xüsusilə* orta siniflərdə yaş psixologiyasının verdiyi tərəddüdlər, digə*r meyllənmələr özünəinamsızlıqla birləşərək uşaqlarda "onsuz da, mən bacarmayacağam" fikrinin güclənməsinə, özünütəsdiqi başqa yerlərdə axtarmasına (məsələn,* küçədə) gətirir".

Yeniyetmələrin pis vərdişlərə aludə olmağının səbəbləri sırasında onların sosial vəziyyətinin ağır olmasını da göstərən ekspertlər vardır. Orta məktəb direktoru qeyd edir ki, "*Sosial vəziyyəti ağır olan gənclərə, uşaqlara dəstək verilərdi ki, dərsdənkənar fəaliyyət onlar üçün əlçatan olsun".* Bu fikirlərdə də ciddi əsaslar var. Belə ki, ölkədə mövcud olan idman komplekslərinin, o cümlədən olimpiya komplekslərinin əksəriyyətində xidmətlər ödənişlidir. Yəni idmanla məşğul olmaq üçün ödəniş edilməlidir. Bu baxımdan sosial vəziyyəti aşağı olan ailələrin bir çoxu övladlarının idmanla məşğul olmaları üçün ödənişlər edə bilmir. Nəticədə yeniyetmələr asudə vaxtlarını pis vərdişlərlə doldurmağa meyl edirlər.

İxtisaslaşmış dövlət qurumlarının (polis, səhiyyə və narkotiklərlə mübarizə üzrə müvafiq qurum) intervüyə cəlb edilmiş məsul şəxslərinin qənaətləri üst-üstə düşür. Onlar da geniş maarifləndirmə işlərinin aparılmasını vacib hesab edirlər və maarifləndirmədə müasir kommunikasiya texnologiyalarından istifadə edilməsini təklif edirlər.

QHT-ləri təmsil edən ekspertlər hesab edir ki, paralel olaraq zərərin azaldılmasına yönələn layihələr genişlənməlidir və daha çox regionda layihələr həyata keçirilməlidir.

Ekspertlər içərisində cinayət təqibinin saxlanılmasını istəyənlər də vardır.

Beləliklə, intyervüyə cəlb yeniyetmələr arasında zərərli vərdişlərə, o cümlədən narkomanlığa meylin artması və narkomanlığa aludəçiliyin çoxalması, xüsusən sintetik narkotiklərin yeniyetmələr tərəfindən istifadəsinin artmaqda davam etməsinin qarşısının alınması üçün hazırda mövcud olan profilaktik tədbirlərin istənilən səviyyədə deyil və bir çox hallarda formal xarakterlidir;

Məktəlblərdə narkotiklərin zərərinə dair ciddi maarifləndirici və məlumatlandırıcı tədbirlər zəif təşkil olunur;

Yerli icra hakimiyyəti orqanlarının müvafiq qurumlarının fəaliyyəti müasir çağırışlara cavab vermir;

Sosial şəbəkələrdə və internet resurslarında narkotik maddələrin təbliği, xüsusən dolayı təbliğat üsullarından istifadəyə dair malumatlar kütləvi yayılır və buna qarşı effektiv tədbirlər yoxdur;

Sosial baxımdan təminatsız ailələrdən olan yeniyetmələrin asudə vaxtlarını, xüsusən idman qurğularında istifadə imkanı, belə qurğulardan istifadənin çox hallarda ödənişli olması səbəbindən məhduddur;

Sosial reklamların yerləşdirilməsi, narkotik maddələrdən, tütün və alkoqoldan istifadənin zərərinə dair əks təbliğat sistemli deyil;

Zərərin azaldılmasına yönələn layihələr məhduddur və coğrafi baxımdan qeyri-bərabər paylanıb.

***Regionlarda mövcud olan asudə vaxt yerlərinin sayı kifayət qədərdirmi? Regionlarda gənclərin asudə vaxtının təşkili, idman qurğularına əlçatanlığı necə təmin olunub?*** Ekspert və mütəxəssislərə verilən bu sualın cavabı da əvvəlki suallara verilən cavabları bir daha təsdiq edir.

Intervü üçün dəvət edilmiş, ölkənin müxtəlif regionlarını və fərqli sektorları təmsil edən ekspert və mütəxəssislərin əksəriyyətinin ortaq qənaəti belə olmuşdur ki, regionlarda, xüsusən kənd və qəsəbələrdə yeniyetmələrin asudə vaxt keçirmələri və idmanla sistematik məşğul olmaları üçün yerlər yox dərəcəsindədir. Rayon mərkəzlərində və şəhərlərdə belə yerlər olsa da

əksəriyyət hallarda ödənişlidir və ya belə yerlər məhdud saydadır. Lakin ekspertlər içərisində belə yerlərin olduğu və bu yerlərin əlçatanlığının təmin olunmasına baxmayaraq yeniyetmələrin bu yerlərdə asudə vaxt keçirməyə və ya davamlı olaraq idmanla məşğul olmağa həvəsi yoxdur. Yeniyetmələrin sağlam asudə vaxt keçirməyə həvəsləndirmək üçün məktəblər və aidiyyatı qurumlar, o cümlədən gənclər təşkilatları, yerli icra və bələdiyyə orqanları tədbirlər həyata keçirmir, idman yarışları, əyləncəli oyunlar təşkil olunmur, yaxud belə tədbirlər epizodik xarakterlidir. Cənub regionundan olan ekspertlərdən biri intervüsündə göstərir ki, idman qurğuları olsa belə "...gənclərin həmin yerlərə cəlb olunmasından ötrü görülən tədbirlər qənaətbəxş deyil".

Qəbələdən olan ekspert qeyd edir ki, belə yerlərin olmasına baxmayaraq onlar düşgün yerləşdirilməmişdir. Ekspert qeyd edir ki, "Bu istiqamətdə əlçatanlığı təbliğ etmək və hər bölgənin infrastrukturuna uyğun formada qurmaq lazımdır".

Cənub regionundan olan QHT rəhbəri öz intervüsündə qeyd edir ki, "...idman qurğuları və idman meydançaları hər kəs üçün əlçatan deyil və aztəminatlı şəxslərin övladları bu imkanlardan məhrum olurlar. Bu da onların daha çox zərərli vərdişlərə yiyələnməsinə səbəb olur".

Bakı şəhərində yerləşən orta məktəbin direktoru da eyni qənaəti bölüşür. "Rayon mərkəzlərinin əksəriyyətində heç bir ictimai yerdə idman qurğuları yoxdur. Olimpiya kompleksləri isə ödənişli xidmət göstərdiyi üçün hər kəs üçün əlçatan deyil".

Ölkənin şimal regionunu təmsil edən QHT rəhbərinin qənaəti də eynidir. "Regionlarda mövcud olan Olimpiya mərkəzləri demək olar ki, artıq cəmiyyətin elita üzvləri üçün açıqdır. Bütün xidmətlər pulludur və imkansız ailələrdən olan gənclər buralara düşə bilmir. Bəzi məhəllələrdə yaradılan kiçik idman qurğuları yerli hakimiyyət orqanlarında işləyən vəzifəli şəxslər üçün gəlir gətirən yerlər kimi fəaliyyət göstərir. Rayonda gənclər üçün yaradılan mərkəz və parkında bahalı restoranlar fəaliyyət göstərir ki, bu da yalnız kiçik bir qrup üçün əlçatandır".

Bir neçə ekspert gənclər və idman sahəsində mövcud olan dövlət orqanının yerli şöbələrinin fəaliyyətsizliyini xüsusi olaraq qeyd edirlər.

Gəncə, Şəmkir, Qazax və Ağstafadan olan ekspert və mütəxəssislərin fikirləri də üst-üstə düşür. Onların hamısı yeniyetmələrinin əksəriyyətinin asudə vaxtlarını keçirmələri üçün şəraitin məhdud olmasını və onlar üçün əlçatan olmamasını qeyd edirlər.

Müxtəlif dövlət orqanlarını təmsil edən məsul şəxslərin fikirləri bir-birinə yaxındır. "Regionlarda olan müəssisələrə yeniyetmə və gənclərin cəlb olunması üçün həvəsləndirici işlər üzrə müvafiq mexanizmlərin təkmilləşdirilməsinə müəyyən qədər ehtiyac vardır". "...*hazırda rayonlarda yeniyetmələrin idmanla məşğul olmaları üçün kifayət qədər zallar və idman meydançaları vardır. Sadəcə olaraq yeniyetmələrə idman növləri ilə məşğul olmaları üçün maraq və stimul yaratmaq lazımdır*".

Göründüyü kimi problem yalnız asudə vaxt mərkəzlərinin az olması və ya düzgün yerləşdirilməməsi ilə bağlı deyildir. Mövcud olan yerlərdən səmərəli istifadə göstəriciləri kifayət qədər aşağı səviyyədədir. İdman kompleksləri və qurğularından istifadə ödənişli olduğu üçün istifadəsiz qalıb mənəvi və fiziki baxımdan aşınır və sıradan çıxır. Yeniyetmələrin və gənclərin asudə vaxtının təşkili, onların sağlam məşğuliyyətə (idman, intellektual oyunlar və s.) cəlb olunması üçün gənclər və idman, təhsil, uşaq məsələləri ilə məşğul olan dövlət orqanları birgə fəaliyyət göstərməlidir.

***Narkotiklərdən istifadənin qarşısı-***

***nın alınması üçün yeniyetmələrə cəza verilməsinə, o cümlədən cinayət məsuliyyətinə cəlb edilməsinə münasibətiniz necədir? Repressiv mübarizə üsulu faydalıdırmı?***

Ekspert və mütəxəssislərə verilən bu sualla bağlı verilən cavablarda dövlət orqanlarını təmsil edən vəzifəli şəxslərlə ictimaiyyət nümayəndələrinin fikirləri arasında bir qədər fərq var. Rəsmi qurumları təmsil edən 3 nəfərin hər biri qeyd edir ki, adminstrativ, tibbi, sosial, maarifləndirici tədbirlərlə yanaşı cinayət təqibi də qalmalıdır. Dövlət orqanını təmsil edən vəzifəli şəxslərdən biri qeyd edir ki, "*Tibbi nöqteyi nəzərdən narkotikdən asılı şəxs xəstə hesab olunur amma kriminoloji aspektdən yanaşdıqda narkotik istifadəçiləri potenisal cinayətkar olma ehtimalı yüksəkdir. Belə ki, narkotikdən istifadə cinayətə təşviqdir və təcrübədə göstərir ki, istifadəçilər bir müddətdən sonra narkotik vasitələrin daşınmasında və satışında iştirakçıya çevrilirlər. Eyni zamanda narkotik istifadəçiləri öz çevrələrində narkotik vasitələrin təbliğatçısı kimi çıxış edirlər*". Dövlət təsisatlarının nümayəndələri cinayət təqibini repressiv metod hesab etmirlər və qeyd edirlər ki, narkomanlığa düçar olunanlara xəstə kimi yanaşılır, sadəcə narkotik maddələrin və onların prekursorlarının əldə edilməsi, saxlanması, becərilməsi, emalı, satışı cinayətdir və təqib olunmalıdır. Bu yanaşma yeniyetmələr üçün də keçərli hesab edilir.

İntervüyə cəlb edilən təhsil işçiləri daha çox alternativ islahedici tədbirlərə üstünlük verirlər. Bununla belə təhsil işçiləri içərisində cəza tədbirlərinin də faydalı olduğunu qeyd edənlər var. Onlar qeyd edir ki, cəza təyin olunan narkotik aludəçisi olan yeniyetmələr ən azı bir müddət məcburən narkotik qəbul etməkdən uzaqlaşdırılırlar və sonra onların bir qismi asılılıqdan azad ola bilir. Sumqayıtdan olan ixtisaslaşmış QHT rəhbəri qeyd edir ki, "*narkotikdən istifadənin qarşısının alınması ücün tərbiyəvi xarakterli tədbirlər təsir etmirsə,onda repressiv tədbirlər vacibdir,cünki bu cəkindirici amil ola bilər,həm də narkotik aludəcisinin olduğu qrupdan təcrid edilməsinə səbəb olar və bu vacibdir*". Ölkənin cənub regionundan olan ixtisaslaşmış QHT rəhbərləri də repressiv metodları faydalı saymırlar. Onlar qeyd edir ki, daha çox preventiv tədbirlər həyata keçirilməlidir. Onlar bir sıra ölkələrdə, o cümlədən qonşu İran İslam Respublikasında cəzaların daha sərt olmasını göstərirlər, lakin sərt cəza tədbirlərinin həmin ölkədə effektiv olmadığını qeyd edirlər.

Gəncə, Ağstafa və Qazaxdan olan intervüyə cəlb edilmiş QHT nümayəndələri daha çox tibbi və sosial reablitasiya, o cümlədən məcburi tibbi tədbirlərə daha çox üstünlük verilməsinin tərəfdarıdır. Bir neçə ekspert yeniyetmələr arasında narkomanlığın müəyyən edilməsi və dispanzerizasiyası təmin olunmasını vacib sayır.

QHT təmsilçilərinin bir qismi cəzanın geriyə dönüşə komək etmədiyi qənaətindədir.

Şəmkirdən olan QHT rəhbəri qeyd edir ki, "*yeniyetmələrin cinayət məsuliyyətinə cəlb edilməsini düzgün vasitə hesab etmirəm. Cinayət məsuliyyətinə cəlb edilən yeniyetmənin cazası başa çatdıqdan sonra bir çoxu keçmiş vərdişlərə qayıdır və hətta cinayətlər törətməyə cəhdləri artır. Repressiv mübarizəni heç bir halda faydalı hesab etmirəm. Yeniyetmələrin narkotikdən istifadəsini doğuran səbəbləri araşdırmaq və aradan qaldırmaq yollarını müəyyənləşdirmək lazımdır".*

Beləliklə bu sual ətrafında ekspert və mütəxəssislərin fikirləri bir-birindən fərqlənir, lakin intervüyə dəvət olunan bütün ekspert və mütəxəssislər qabaqlayıcı tədbirlərin görülməsini, xüsusən yeniyetmələrlə bağlı məktəblərə, cəmiyyətdə geniş iş aparılmasının, tibbi və sosial reablitasiya tədbirlərinə üstünlük verilməsinin vacib olduğunu qeyd edirlər.

***Yeniyetmələrin zər***erli vərdişlərə, o cümlədən narkotiklərə meyl etməsinin səbəbləri barədə fikirləriniz***.***

İntervüyə dəvət edilmiş ekspert və mütəxəssislər əvvəlki cavablarında bu sua-

la qismən cavab verib öz fikirlərini bildirmişdir. Bu cavabla ekspertlər və mütəxəssislər əvvəlki cavablarını bir daha təsdiq edirlər. İntervü edilənlərin əksəriyyəti səbəbləri aşağıdakı amillərin mövcudluğu ilə əlaqələndirirlər:

•Ailədə düzgün tərbiyə və ciddi nəzarətin olmaması, bəzi ailələrdə valideynlərin özlərinin normal həyat tərzi keçirməmələri, bir çox hallarda atanın uşaqların tərbiyəsinə vaxt ayırmaq imkanının olmaması (məsələn iş üçün başqa ölkəyə gedən atalar) ilə;

•Yeniyetmələri əhatə edən mühitdə narkotik istifadə edənlərin olması və onların sayının artması. Həmçinin narkotik maddələrin, xüsusən sintetik tərkibli narkotik maddələrin əlçatan olması;

•Məktəblərdə tərbiyə işinin düzgün qurulmaması (məktəb idmanı ilə bağlı əvvəlki suallarda cavablar verilmişdir);

•Yerli icra hakimiyyəti orqanlarının bu sahədəki fəaliyyətsizliyi;

•Narkomanlıq əleyhinə təbliğatın, xüsusən kütləvi informasiya vasitələrində aparılan təbliğatın zəif olması, düzgün qurulmaması və bəzi hallarda əks effekt verməsi (məsələn narkomanlıq əleyhinə təbliğat narkomanlıqla və narkotiklərin əldə edilməsi, hazırlanması ilə bağlı məlumatlılığı artırır;

•Sosial şəbəkələrdə narkomanlığın dolayı, bəzən də birbaşa təbliği və s.

Uşaq məsələləri üzrə ixtisaslaşmış QHT rəhbəri öz intervüsündə səbəbləri “ailə münaqişələri, ailə problemləri, müəllimlər, yaşıdları, valideynləri ilə münaqişələr, ailədəki emosional məhrumiyyət (valideynlər tərəfindən rədd edilmə), valideynlərin alkoqol və ya narkotik asılılığı” ilə əlaqələndirməklə yanaşı bəzən ifrat nəzarətin də mənfi effekt verdiyini göstərir. Ölkənin şimal-qərb regionundan olan ekspert (QHT rəhbəri) də bu fikiri bölüşdürərək qeyd edir ki, “həddində artıq qoruyuculuq və nəzarətin olduğu ailənin uşaqlarında narkotik maddəyə meyillilik müşahidə edilmişdir. Övladlarına qulaq asmayan, onları başa düşməyən, öz dəyərlərini davamlı olaraq təlqin edən, uşağın şəxsi dəyərlərinin formalaşmasına imkan verməyən valideynlər gələcəkdə uşaqları ilə problemlər yaşayırlar. Valideynin diqqəti, qayğısı, uşaqlar ilə keçirdiyi vaxt və onlara qarşı mövqeyi müəyyənedici amil olaraq qiymətləndirilir”.

Həmin regionu təmsil edən digər ekspert qeyd edir ki, yeniyetmələrin həssas olduğu dövrdə, yəni yetişkənlik vaxtlarında onlara diqqətin az olması əsas səbəblərdən biridir.

Bakı şəhərində yerləşən orta məktəb direktoru intervüsündə “nəzarətsizlik, küçə mədəniyyətinin, oğru dünyasının təbliği, uşaq və yeniyetmələr üçün vaxtın düzgün planlaşdırılmaması”nı əsas səbəblərdən hesab edir.

Başqa bir ixtisaslaşmış QHT rəhbəri öz intervüsündə qeyd edir ki, belə yeniyetmələr digəri üçün mənfi nümunəyə çevrilirlər. “Yeniyetmə və gənclərinin narkomanlığa qurşanması onların təhsildən yayınmasına, ictimai həyatdan uzaqlaşmasına, ətrafdakı insanlara daha çox cinayətkar simasının aşılanmasına və ən əsası da sağlamlıqlarının zərbə altında qalmasına səbəb olur”.

Bakı şəhərində fəaliyyət göstərən ixtisaslaşmış QHT nümayəndəsi narkomanlığa aparan yolun bəzən digər zərərli vərdişlərdən başladığı qənaətindədir. Siqaretə və alkoqola aludə olan yeniyetmələr növbəti addım kimi, narkotik maddələrin dadını bilmək istəyir və sonradan bu vərdişə və asılılığa gətirir.

Ölkənin şimal regionunu təmsil edən ekspertin fikrincə hüquq-mühafizə orqanları təhsil müəssisələrinin ətrafını daha ciddi nəzarətə götürməlidir. Bəzən narkotik yayıcıları belə yerlərdə daha çox “məskunlaşırlar”.

Dövlət qurumlarının məsul əməkdaşları olan müsahiblər oxşar qənaətlər irəli sürmüşdür. Onlar intervülərində səbəb kimi "yeniyetmə və gənclərdə maraq, bəlli sərhədləri aşmaq istəyi, qanunları pozmaqdan zövq alma hissi, duyğusal boşluğun" olmasını, bu maddələrin zərəri barədə kifayət qədər məlumatlarının olmaması, xüsusən də "sintetik tərkibli psixotrop maddələrin fəsadları barədə bilgilərin az olması" ilə əlaqələndirirlər.

Müxtəlif sahələri və regionları təmsil edən ekspert və mütəxəssislərin cavabları bu sualda da əksəriyyət hallarda üst-üstə düşür. Ailələrdə, məktəbdə, cəmiyyətdə zəruri fəaliyyətlər düzgün qurulmayıb və virtual məkanda tam nəzarətsizlikdir. Narkotik maddələr və onların perekursorları, xüsusən nisbətən ucuz, amma daha zərərli sintetik tərkibli narkotik maddələrin əldə edilməsi asanlaşıb.

***Sizcə yeniyetmələrdə zər***ərli vərdişlərə meyl etmək əsasən harda yaranır? Məktəbdə, məhəllədə, sosial şəbəkədə və ya başqa bir yerdə? Fikirlərinizi necə əsaslandıra bilərsiz?

Ekspert və mütəxəssislərin rəylərinə əsaslansaq hazırda yeniyetmələrin zərərli vərdişlərə meyl etmələri və həvəsləndirilmələri üçün areallar genişlənməkdədir. Belə areallar həm də virtual məkanın gündən-günə genişlənməsi hesabına daha da artmaqdadır.

Zərərin azaldılması üzrə uzun illər layihələr icra edən və ölkənin şimal-qərb regionundan olan QHT rəhbəri qeyd edir ki, "bizim rastlaşdığımız hallara əsasən, məktəb və məhəllələrdə daha tez tez olur - əksər hallarda, bir gənc dadına baxır və digər yeniyetmələri həvəsləndirir. Yaşca böyük və təcrübəsi olan istifadəçilərin yeniyetmələri cəlb etməsi halları çoxdur (səbəbləri-pul,malın keyfiyyətini yoxlamaq,mala əl çatanlığı təmin etmək). Həmçinin sosial şəbəkələrdə kodlaşma və gizli yanaşma yeniyetmələri bu işə cəlb edir". Ölkənin müxtəlif regionlarından olan ekspert və mütəxəssislərin hamısı məktəb, məhəllə və sosial şəbəkələri yeniyetmələrin narkomanlığa meyl etməsinə şərait yaradan əsas yerlər kimi göstərir.

Şəmkirdən olan ixtisaslaşmış QHT rəhbəri isə qeyd edir ki, belə məkanlar durmadan artır. O qeyd edir ki, "artıq yeniyetmələrdə zərərli vərdişlərə meyl etməsi bir neçə məkanda yaranmır. Narkomanlıq kütləviləşdiyi üçün hər yerdə rast gəlinir. Şəhər məktəblərində, məhəllələrdə, ictimai yerlərdə qismən çoxalmışdır. Sosial şəbəkələrdə müxtəlif vasitələrlə narkotikanı təbliğ etməyə çalışırlar".

Dövlət qurumlarını təmsil edən vəzifəli şəxslər yeniyetmələr arasında narkomanlığın yayılmasına sosial şəbəkələri, gecə klublarını da qeyd edirlər. Narkomanlığa qarşı mübarizə aparan qurumun nümayəndəsi həmçinin qeyd edir ki, "zərərli vərdişlərdən asılılıq kimi ilkin meyllərin yaranmasının konkret məkanı qeyd etmək olmur lakin sadalananların hər birində olma ehtimalı vardır ancaq narkotikdən istifadə əsasən düzgün seçilməyən "dost" ilə başlayır. Təcrübə göstərir ki, təkbaşına narkotik vasitələrlə ilk tanışlıq və ondan istifadə halları olmur".

Şimal regionundan olan QHT rəhbəri belə məkanların sırasına sosial şəbəkələrlə yanaşı qəlyan, çayxana və gecə klublarını, heç bir maraqlı xidmətləri olmayan parkları da əlavə edir.

Cənub regionundan olan ixtisaslaşmış QHT rəhbəri qeyd edir ki, yeniyetmələr məhəllədə, yaşadıqları şəhər, qəsəbə və kəndlərdə pis vərdişlərə alışmış həmyaşıdlarına qoşulub "mühitə uyğunlaşırlar". "Hətta bir çox yeniyetmə və gənclər öz tay-tuşları ilə bir yerə yığışaraq siqaret, qəlyan, spirtli içkilərə aludə olurlar. Bu zaman həmin gənclərin böyük hissəsinin narkotik vasitələrdən istifadə edənlər də olur".

Bakı şəhərindən olan və uşaq məsələlə-

ri üzrə ixtisaslaşmış QHT nümayəndəsi isə sosial dairənin məhdudlaşması və genetik əsasları da bu sıraya əlavə edir.

Gəncədən olan ekspertlər də yeniyetmələrin pis vərdişlərə, o cümlədən narkomanlığa meyl etmələri üçün şəraitin durmadan genişlənməsini qeyd edirlər, onlar da məktəb, məhəllə, sosial şəbəkələrin mənfi rolunu qeyd etməklə yanaşı həm də göstərirlər ki, yeniyetmələr əvvəlcə "nisbətən az zərərli olan" siqaret, qəlyan çəkmə və alkoqollu içkilərə aludə olur və narkomanlıq bundan sonra növbəti vərdişə çevrilir.

Beləliklə intervüyə dəvət edilmiş bütün şəxslər yeniyetmələrin zərərli vərdişlərə meyl etmələri üçün məkanların tədricən artmasını, narkotik maddələrin daha əlçatan olmasını qeyd edirlər.

***Belə oturuşmuş fikirlər var ki, anti-narkomanlıq*** təbliğatı əks effekt verir və xüsusən yeniyetmələr arasında narkotiklərə marağı artırır? Sizcə belədirmi?

Fikirləri öyrənilən əksəriyyət ekspert və mütəxəssislər hesab edir ki, narkomanlıq əleyhinə təbliğat düzgün qurularsa bu zaman əks effekt verməyəcəkdir. Bununla intervüyə cəlb olunanlar belə səriştəsiz, qeyri-peşəkar təbliğatın mənfi təsirlərinin olacağını da istisna etmirlər.İxtisaslamış dövlət orqanının məsul əməkdaşı intervüsündə qeyd edir ki, "*anti- narkomanlığın* təbliğatı əks effekt verməməsi üçün maarifləndirmə işləri çərçivəsində təşkil olunan seminarların, treninqlərn və təlimlərin aparılması bu sahə üzrə ixtisaslaşmış təcrübəli əməkdaşlara həvalə edilməlidir. Təcrübə göstərir ki, naşıcasına, ehtiyatsız verilən məlumat yeniyetmə və gənclərdə qeyri-sağlam maraq oyada və narkoti*klərin dadına baxmağa, təsirini yoxlamağa can atmasına səbəb ola bilər".*

Bakı şəhərində fəaliyyət göstərən orta məktəbin direktoru da təxminən yuxarıdakı fikirləri bölüşür. "*Təbliğat üslubundan asılıdır. Məsələn, narkotik vasitələr haqqında danışanda, uşaqlarda maraq yarana bilər. Narkotiklərdən istifadə edən insanların həyatını, xəstəliklərini, cəmiyyətdə mövqelərini nümunə göstərəndə müsbət effekt verir".*

Uşaq problemləri üzrə ixtisaslaşmış QHT rəhbəri qeyd edir ki, "anti-narkoman təbliğatı gənclərin həyatına müsbət təsir göstərə bilər. İdmana, əlçatan təhsillə, müxtəlif ictimai təşkilatlarda məşğuliyyət üçün şəraitin yaradılması gəncləri narkotikdən yayındıra bilər. Təbliğat tibbi, pedaqoji, psixologiya və sosiologiya sahələri nəzərə alınmaqla tətbiq olunmalıdır.

Sumqayıt şəhərindən olan təhsil işçisi qeyd edir ki, təbliğat işini düzgün qurmaq vacibdir. O, məktəblilərin narkoloji dispanserlərə ekskursiyalarının təşkili, ixtisaslaşmış həkimlərlə görüşlərin keçirilməsini praktiki baxımdan əhəmiyyətli sayır.

İxtisaslaşmış polis və səhiyyə qurumlarının nümayəndələri təbliğatın zəruri olmasını, amma bu işin peşəkarlarla edilməsini və hədəf qrupunun düzgün seçilməsinin vacib olduğunu bildirirlər.

Ekspertlərin bir qismi narkomanlıqla bağlı acı həqiqətlərdən ibarət sosial çarxların hazırlanmasını, onların mediada, o cümlədən sosial mediada yerləşdirilməsini və tele kanallarda davamlı nümayış etdirilməsini vacib əks-təbliğat üsulu kimi qeyd edirlər.

Əvvəllərdə küçələrdə və digər ictimai yerlərdə narkomanlığın zərərini göstərən reklamlar yerləşdirilirdi. Son illərdə belə lövhələrin sayı kəskin azalmışdır. Əvvəllərdə belə reklamlar üçün xarici ölkə donorları qrantlar ayırırdı deyə onların sayı çox idi. İndi ixtisaslaşmış dövlət qurumları bu üsula yenidən diqqəti artırmalıdır.

Narkomanlıq əleyhinə təbliğat peşəkar

qurulmalıdır. Əks təbliğat düzgün qurulmadıqda təbliğata çevrilir və əks effekt verir. Tədqiqatlar aparılarkən, xüsusilə yeniyetmələr arasında sorğular keçirilərkən yüksək peşəkarlıq nümayiş etdirilməlidir. Etik qaydalara ciddi əməl olunmalı, 16 yaşdan aşağı olan uşaqları belə mövzularla bağlı sorğulara cəlb etmək yalnız valideynlərinin və ya qəyyumlarının iştirakı və razılığı ilə aparılmalıdır.

***Yeniyetmələr arasında zərərli vərdişlərin, o cümlədən narkotiklərdən istifadənin qarşısının alınması üçün effektiv vasitələr varmı? Varsa fikrinizcə bunlar hansı vasitələrdir?***

Ekspert və mütəxəssislərə verilən bu sual da əvvəlki sualların bəzisinin dolayı təkrarı idi və intervüyə cəlb edilənlərin oturuşmuş fikirlərinin və təkliflərinin təsdiqi və konkretləşməsi üçün verilmişdir. Ekspert və mütəxəssislər tərəfindən effektiv vasitə kimi həm səbəblərin müəyyən edilməsi və aradan qaldırılması, həm də nəticə ilə effektiv mübarizə aparılmasının vacibliyi qeyd olunur. Maarifləndirmənin, amma düzgün və əhatəli maarifləndirmənin ən effektiv vasitələrdən olmasını da əksəriyyət qeyd etmişdir.

Yeniyetmələrin, xüsusən də həssas dövrə qədəm qoyan yeniyetmələrin zərərli vərdişlərdən çəkinmələri üçün həm məktəbdə, həm də bütövlükdə cəmiyyətdə davamlı və effektiv fəaliyyətlər həyata keçirilməlidir. Maarifləndirmə ilə yanaşı sosial, tibbi, psixoloji reablitasiya tədbirləri, çətin uşaqların nəzarətə götürülməsi və onlarla işin qurulması vacibdir. Yalnız ailələr artmaqda olan narkomanlığın qarşısını ala bilməyəcəkdir. Hazırkı dövrdə müvafiq qurumlar ənənəvi və formal iş metodundan imtina etməli, yeni və beynəlxalq qurumlar və ixtisaslaşmış xarici ölkə təsisatlarının hazırladıqları metodlardan istifadə etməklə geniş miqyaslı işlər həyata keçirilməlidir.

Ekspertlər onu da qeyd edirlər ki, effektiv vasitələrdən biri də məktəblərdə “şagirdlərə özünüidarə imkanları yaratmaq, onların fəal və məsuliyyətli olmasını dəstəkləyir. Şagirdlər üçün önəmli olan məsələlərin nəzarətdə saxlanılması şagirdlərin özlərinə həvalə etmək”-dir.

Ekspert və mütəxəssislər qeyd edir ki, problemli ailələrlə iş ayrı təşkil olunmalıdır. Belə ailələrin nəzarətsiz qalması nəticəsində həmin ailələrdə pis vərdişlərə aludə olan yeniyetmələr öz vərdişlərini normal ailələrdən olan həmyaşıdlarına ötürə bilirlər. Bu baxımdan əslində problemli ailənin məsələsi cəmiyyətin probleminə çevrilməli və hamılıqla həll edilməlidir.

İntervüyə cəlb edilənlərin əksəriyyəti hüquq-mühafizə orqanlarının işinin effektivliyinin artırılmasını ən yaxşı vasitələrdən hesab edirlər. Onların qənaətinə görə hüquq-mühafizə orqanları nəticə ilə mübarizə ilə yanaşı səbəblərin aradan qaldırılması, ölkəyə kənardan narkotik maddələrin, onların perekursorlarının gətirilməsinin qarşısını almalıdırlar. Xüsusən sintetik tərkibli, ucuz və zərərli maddələrin xammalının gətirilməsi və onlardan narkotik maddələrin hazırlanmasına qarşı mübarizə genişlənməlidir.

Ekspertlər və mütəxəssislər yeniyetmələr arasında narkomanlığın artımını yalnız problemli ailələrdən olanlar arasında yayılması qənaətində deyillər, əksinə imkanlı ailələrdən olan yeniyetmələr bəzən narkotik maddələrin istifadə və yayılma prosesində daha çox iştirak edirlər. Bu baxımdan tədbirlər bütün təbəqələrə yönəlməlidir.

Sosial şəbəkələrə nəzarətin güclənməsini də vacib hesab edən ekspert və mütəxəssislər həm də sosial şəbəkələrdən düzgün istifadə etməklə narkomanlıqla mübarizəni effektiv qurulmasının mümkünlüyünü qeyd edirlər. İxtsaslaşmış dövlət qurumunun vəzifəli şəxsi intervüsündə qeyd edir ki, “*zərərli vərdişlərə qarşı ən effektiv vasitə*

*maarifləndirmə və təbliğat işinin təşkilidir. Lakin mövcud göstəriciləri qorumaq və bu sahədə vəziyyəti yaxşılaşdırmaq üçün artıq ənənəvi üslublardan fərqli olaraq daha təsirli metodlarla maarifləndirmə tədbirləri təşkil etməliyik. Dünya təcrübəsini nümunə alaraq informasiya-komunikasiya texnologiyalarının imkanlarından geniş istifadə etməklə naromanlıq əleyhinə maarifləndirici və məlumatlandırıcı fəaliyyətlər təmin olunmalıdır*".

Gəncədən olan ixtisaslaşmış QHT rəhbəri qeyd edir ki, narkonamlığa qarşı mübarizə paralel olaraq həm yaşlılar, həm də yeniyetmələr arasında aparılmalıdır. Çünki, narkoticarətlə məşğul olanlar üçün yeniyetmələr ən uğurlu müştəri hesab olunur. Bu baxımdan mübarizə yaşdan asılı olmayaraq aparılmalı, sadəcə yeniyetmələrə münasibətdə fəaliyyətlər fərqli metodlarla qurulmalıdır.

Beləliklə bu suala cavab verən əksəriyyət ekspert və mütəxəssislər hesab edir ki, mübarizə üçün vasitələr mövcuddur. Amma onlardan düzgün istifadə olunmur və sistemsizdir. Onların verdikləri təkliflər olduqca faydalıdır və müvafiq dövlət proqramlarının hazırlanmasında nəzərə alınmalıdır.

## 8.NƏTİCƏLƏR

***Qanunvericiliyin təhlili üzrə***

❖ Müvafiq normativ-hüquqi aktlarda narkomanlığa qarşı mübarizə tədbirləri (cəza, profilaktika və s.) ümumi xarakterlidir. Əsas fəaliyyət narkotik maddələrin və onların perekursorlarının qanunsuz dövriyyəsi, o cümlədən əldə edilməsi, istifadəsi, ticarətinin qarşısının alınmasına yönələn cinayət təqibi tədbirlərini əhatə edir. Nəticədə narkomanlığın səviyyəsi nəinki azalmır, əksinə artmaqda davam edir və bu artım həm də yeniyetmələrin hesabınadır. Qanunvericilikdə yeniyetmələrə və həddi-büluğa çatanlara, o cümlədən yaşlı nəsilə münasibətdə əsasən fərqli yanaşma əks olunmur. Bu isə bir çox hallarda həm cəzanın müəyyən edilməsində, həm profilaktik tədbirlərdə ciddi əngəllər yaradır və yüksək nəticələr əldə etməyə imkan vermir.

❖ İnzibati Xətalar Məcəlləsində yeniyetmələrin zərərli vərdişlərə təşviq və cəlb edilməsi ilə bağlı xətalar və bu xətalarla bağlı sanksiyalar nəzərdə tutulur. Həmçinin valideyn məsuliyyətsizliyi ilə bağlı da valideynlərin inzibati məsuliyyətə cəlb olunması ilə bağlı da maddə mövcuddur. Bununla belə yeniyetmələrin pis vərdişlərə, o cümlədən narkomanlığa meyl etməsinə şərait yaradan cavabdeh tərəflərin, o cümlədən təhsil müəssisələrinin, yerli hakimiyyət və özünüidarə oqranlarının, ayrı-ayrı şəxslərin məsuliyyətini müəyyən edən xəta növləri və onlara müvafiq olaraq sanksiyalar müəyyən edilməmişdir. Bu baxımdan nə təhsil müəssisələri, nədə aidiyyatı olan müvafiq qurumların yeniyetmələrə yönələn fəaliyyətlərində yol verdiyi səhlənkarlıqlara görə bilavasitə məsuliyyət daşımır.

❖ Yetkinlik yaşına çatmayanlara münasibətdə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımaya görə cinayət cəzası təyin olunarkən Cinayət Məcəlləsinin 59.1.2-ci maddəsi nəzərə alınsa da daha çox alternativ cəzalara və alternativ tədbilərə o cümlədən sosial reablitasiya tədbirlərinə üstünlük verilməsi daha effektiv olardı. Yeniyetmələr üçün bu əməllərə görə cəzanın yüngül olması halında yaşlı insanların sui-istifadəsinin (narkotik maddələrlə bağlı cinayətlərə uşaqların cəlb olunması) qarşısının alınması üçün Cinayət Məcəlləsinə 234.3-1-ci maddə əlavə olunmuşdur. Həmçinin Cinayət Məcəlləsində narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına bilə-bilə yetkinlik yaşına çatmayan şəxsin təhrik etmə (CM 236.2.3.) ağır cinayət hesab olunur”. BMT-nin narkotik və cinayətkarlıq məsələləri üzrə idarəsinin (UNODC) hazırladığı “**Yeniyetmələrin işi üzrə ədalət mühakiməsi**” adlı vəsaitdə də yeniyetmələrə münasibətdə cinayət təqibinin alternativ tədbirlərlə əvəz olunması sağlam sistemin yaradılmasınada vacib element hesab olunur. Belə tədbirlər uşağa, mühakimə olunmaqdan sonrakı həyatındakı damğadan yayınmağa imkan verir, uşağın reputasiyasına ziyan vurmur, ləkələnməkdən xilas edir, onun cinayət prosesinin iştirakçısına çevrilməsinin qarşısını alır, onu daha çox adətkarda olmuş qanun pozucuları ilə üzləşmək və kontaktda olmaqdan xilas edir[32]. Xarici ölkələrdə aparılan tədqiqatlar da göstərir ki, narkotik maddələrin qanunsuz dövriyyəsinə görə cinayət təqibinə məruz qalaraq cəzalandırılan yeniyetmələr, xüsusən də azadlıqdan məhrum edilən yeniyetmələrin islah olunması nadir hallarda baş verir. Bu baxımdan əslində cəza öz məqsədlərindən birinə (məhkumun islah edilməsi) çata bilmir.

❖ Beləliklə qanunvericiliyin təhlili və digər ölkələrin qanunvericiliyinə nəzər saldıqda müəyyən olunur ki, müvafiq norma-

32. https://www.unodc.org/pdf/criminal_justice/10-52547_4_Cross-cutting_2_ebook.pdf

tiv-hüquqi aktlara yenidən baxılmalıdır. Xüsusən qanunvericilikdə yeniyetmələrə münasibətdə fərqli yanaşmaların olması zərurəti var. Həm inzibati tənbeh, həm cinayət cəzasına cəlb etmə, həm də profilaktik (dispanserizasiya, tibbi və sosial reablitasiya tədbirləri) tədbirlər yeniyetmələr üçün qanunvericilikdə fərqli tənzimlənməlidir.

***Yeniyetmələr arasinda narkomanlığın yayılması ilə bağlı məlumatların toplanması və statistik göstəricilərə dair nəticələr***

❖ Dövlət orqanlarının yeniyetmə narkomanlığı ilə bağlı topladıqları statistik məlumatlar reallığı əks etdirmir. Statistik məlumatlar yalnız cinayət məsuliyyətinə və ya dispanser uçotuna alınan 16-18 yaş arası yeniyetmələri əhatə edir. Statistikanın təhlili göstərir ki, müvafiq qurumlar yeniyetmələr arasında narkomanlığın yayıması ilə bağlı tədqiqatlar aparmır və xüsusi metodika əsasında yayılma göstəricilərini müəyyən etmir. Narkomanlığın yayılma əmsalının dolayı metodlarla öyrənilməsi ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətlər üzrə İdarəsinin hazırladığı metodologiyadan[33] istifadə etməklə müxtəlif kateqoriya insanlar, o cümlədən yeniyetmələr arasında narkomanlığın yayılma əmsalının müəyyən edilməsi həyata keçirilmir.

❖ Statistik məlumatlarda həmçinin yeniyetmə narkomanlığı ilə mübarizəyə dair göstəricilər, o cümlədən profilaktika, məsləhət, müalicə, sosial reablitasiya, zərərin azaldılması və təklifin azaldılmasına dair göstəricilər və onların nəticələri barədə də məlumatlar əks olunmayıb.

❖ 14 yaşına qədər olan uşaqlar arasında ümumiyyətlə narkomanlığın qeydə alınmaması da yeniyetmə narkomanlığının bütövlükdə latent vəziyyətdə olmasını göstərir. Bu halda yeniyetmə narkomanlığına qarşı mübarizə tədbirlərini planlaşdırmaq və həyata keçirmək olduqca mürəkkəbdir. Mübarizə tədbirləri bu halda məqsədli qruplara bilavasitə yönələ bilmir və ümumi xarakter daşıyır.

***Sosioloji sorğunun əsas nəticələri***

❖ Sosioloji sorğunun nəticələri göstərir ki, insanları ən çox narahat edən məsələlərdən biri də yetişməkdə olan nəslin pis vərdişlərə, o cümlədən narkomanlığa düçar olmasıdır. İşsizlik və yoxsulluq əhalini ən çox narahat edən problemlər kimi qeyd olunsa da respondentlərin əhəmiyyətli hissəsi yeniyetmə narkomanlığının dinamikasından narahat olduqlarını bildirmişdir. Rəyi soruşulanların yarıdan çoxu bu qənaətdədir ki, yeniyetmələr arasında narkomanlığa meyl artmaqdadır. Yaşı 18 və yuxarı olan respondentlərin 64%-i tanış və yaxınlar arasında narkotik qəbul edən yeniyetmələr barədə eşitdiyini bildirib. Bu isə o nəticəyə gəlməyə imkan verir ki, əslində yeniyetmə narkomanlığının mövcud olması ilə bağlı əhali arasında kifayət qədər məlumat vardır. Bu isə rəsmi məlumatlar əsasında deyil, insanların öz müşahidələri əsasında formalaşmış məlumatlardır.

❖ Sorğuda iştirak edənlər arasında narkotik maddə qəbul etməsini etiraf edənlər az olmuşdur. Bunun səbəblərindən biri də istifadəçilərin etirafdan çəkinmələridir. Bu isə narkomanlığın əksəriyyət halda latent qalmasına gətirir. Yeniyetmələr narkomanlığa düçar olduqda və bu barədə valideynlər bildikləri halda belə bunu gizli saxlayırlar və hətta hər hansı tibbi və sosial reablitasiya tədbirlərinın görülməsi üçün müraciət etmirlər.

❖ Respondentlər ölkənin cənub, aran Gəncəbasar və şimal regionlarında yeniyetmələr arasında narkomanlığın daha çox yayılması qənaətindədir.

❖ Respondentlərin əksəriyyəti yeniyetmələrin narkomanlığa düçar olmasını onların sosial vəziyyətindən daha çox mühitlə

33. https://www.unodc.org/documents/GAP/GAP%20To

əlaqələndirirlər. Sosial vəziyyət yalnız dolayı təsir göstərə bilər. Məsələn, yeniyetmə asudə vaxtını təşkil etmək üçün idman qurğularından istifadə edə bilmir (ödənişli olduğu üçün) və ətrafda olan avara həmyaşıdlarına qoşulur. Lakin əksəriyyət belə hesab edir ki, yeniyetmələr narkotikləri dostlarla birlikdə olan əyləncə məclislərində qəbul edirlər və onları ən çox satışını həyata keçirən kənar şəxslərdən, həmçinin məhəllədən, küçədən əldə edirlər. Yeniyetmələr məktəbdə, məhəllədə və bötüvlükdə ictimai mühitdə nəzarətsiz qaldıqları halda dost və tanışlardan geri qalmamaq üçün, yeni bir şeyi sınamaq həvəsi ilə və ya əyləncə axtarışına başlayır. Valideynlərin məsuliyyətsizliyi və ya biganəliyi də əsas səbəblərdən biri kimi qeyd edilmişdir.

❖ Rəyi öyrənilənlərin çox yeniyetmələrin narkomanlığa aludə olmasının əsas fəsadları kimi onlar arasında bəzi infeksion xəstəliklərin yayılmasını, onların potensial cinayətkar olmalarını, fiziki və mənəvi baxımdan sağlamlıqlarını itirməsini və ətrafdakılara da mənfi nümunə yaratmalarını göstərirlər.

❖ Yeniyetmələr arasında pis vərdişlərin yayılmasının qarşısının alınması üçün ən effektiv vasitə kimi onların asudə vaxtının səmərəli təşkil olunmasını, məktəb idmanının və intellektual yarışların kütləviləşdirilməsini, təhsilin səviyyəsinin artırılmasını, sosial şəbəkələrdə yayılan zərərli məlumatların neytrallaşdırılmasını və problemli ailələrin nəzarətə götürülməsini göstərirlər.

***Dərinləşmiş intervülərin əsas nəticələri***

Dərinləşmiş intervülərdən əldə edilən əsas nəticələr aşağıdakılar olmuşdur:

❖ Yeniyetmələrin pis vərdişlərə, o cümlədən narkomanlığa meyl etmələri üçün şərait durmadan genişlənməkdədir. Yeniyetmələrin pis vərdişlərə, o cümlədən narkomanlığa meyl etməsi və aludə olması üçün əsas məkanlar təhsil müəssisələri, məhəllələr, və virtual məkan hesab edilir. Yeniyetmələr əvvəlcə "nisbətən az zərərli olan" siqaret, qəlyan çəkmə və alkoqollu içkilərə aludə olur və narkomanlıq bundan sonra növbəti vərdişə çevrilir. Yeniyetmələrin zərərli vərdişlərə meyl etmələri üçün məkanların tədricən artması fonunda narkotik maddələr, xüsusən daha zərərli, amma nisbətən ucuz olan sintetik tərkibli narkotik maddələri əldə etmək daha asan olmuşdur.

❖ Yeniyetmələrin sağlam məşğuliyyətə, o cümlədən idmana və intellektual yarışlara cəlb edilməsi üçün kütləvi və sistemli fəaliyyətlər həyata keçirilmir. Təhsil müəssisələrinin xeyli hissəsində idman qurğuları ya yoxdur, yaxud yararsız vəziyyətdədir. İdman və əyləncəli-məlumatlandırıcı oyunların təşkili üçün yaxşı və ya minimal şəraiti olan müasir məktəblər mövcud olsa da. Onların əksəriyyətində idman və ya digər əyləncə və məlumatlandırıcı xarakterli oyunlar (yarışlar) ya təşkil olunmur, yaxud epizodikdir. Məktəblərarası idman yarışları təşkil edilmir. Pandemiya dövründə isə ümumiyyətlə idman dərsləri unudulub.

❖ Şəhərlərdəki məhəllələrdə, kənd və qəsəbələrdə aktiv idman oyunları üçün şərait demək olar ki, yoxdur. Yalnız son dövrlərdə bəzi məhəllələrdə həyətlərin abadlaşdırılması nəticəsində azyaşlı uşaqlar üçün bəzi qurğular quraşdırılıb. Lakin məhəllə futbolu və digər aktiv idman oyunları üçün şərait ya yoxdur, ya da məhduddur. Kənd və qəsəbələrin də əksəriyyətində əvvəllərdə mövcud olan idman meydançaları pay torpaqlar şəkilində və ya digər formada özəlləşdirilib və ya təyinatı dəyişdirilib. Hazırda kənd və qəsəbələrdə əvvəllərdə mövcud olan ənənəvi həyət oyunları, idman oyunları yox dərəcəsindədir.

❖ İdman oyunları üçün minimal imkanları olduqları yerlərdə belə yeniyetmə və gənclərin idman oyunlarına cəlb olunması təmin edilmir. Mövcud olan yerlərdən səmərəli istifadə göstəriciləri kifayət qədər aşağı səviyyədədir. İdman kompleksləri və qurğularından istifadə ödənişli olduğu üçün

istifadəsiz qalıb mənəvi və fiziki baxımdan aşınır və sıradan çıxır. Sosial baxımdan təminatsız ailələrdən olan yeniyetmələrin asudə vaxtlarını, xüsusən idman qurğularında istifadə imkanı, belə qurğulardan istifadənin çox hallarda ödənişli olması səbəbindən məhduddur. Yeniyetmələrin və gənclərin asudə vaxtının təşkili, onların sağlam məşğuliyyətə (idman, intellektual oyunlar və s.) cəlb olunması üçün gənclər və idman, təhsil, uşaq məsələləri ilə məşğul olan dövlət orqanları birgə fəaliyyət göstərmir. Müvafiq qurumlar, o cümlədən yerli icra hakimiyyəti orqanları, gənclər təşkilatları yeniyetmə və gəncləri idman oyunlarına təşviq etmək üçün ciddi stimullaşdırıcı tədbirlər görmürlər. Nəticədə sosial şəbəkələr, smart telefonlar (planşetlər) aktiv idman oyunlarını arxa plana keçirib. Yeniyetmələrin passiv və bir çox hallarda zərərli olan bu məşğuliyyətdən (asudə vaxt keçirməkdən) uzaqlaşdırması üçün aktiv və intellektual idman növlərinin inkişafı vacibdir. Məktəblərdə mövcud olan idman qurğularından səmərəli istifadə edilmir. idmanla bağlı tədrisin keyfiyyəti aşağıdır, həmçinin məhəllələrdə idman oyunlarının təşkili üçün minimal şəraitin yaradılması ilə bağlı yerli icra hakimiyyəti və yerli özünüidarə orqanları ciddi işlər görmür.

❖ Narkomanlıq əleyhinə təbliğat peşəkar qurulmamışdır. Xüsusən yeniyetmələrin pis vərdişlərdən çəkindirmək üçün xüsusi təbliğat mexanizmləri yaradılmayıb. Düzgün və xüsusi metodika əsasında əks-təbliğatın qurulmaması bəzən  və əks effekt verir. Tədqiqatlar aparılarkən, xüsusilə yeniyetmələr arasında sorğular keçirilərkən yüksək peşəkarlıq nümayiş etdirilmir. Halbuki bu kateqoriyanı tədqiqat prosesinə cəlb edərkən etik qaydalara ciddi əməl olunmalı, 16 yaşdan aşağı olan uşaqları belə mövzularla bağlı sorğulara cəlb etmək yalnız valideynlərinin və ya qəyyumlarının iştirakı və razılığı ilə aparılmalıdır.Sosial reklamların yerləşdirilməsi, narkomanlıq və digər zərərli vərdişlərə aludəçiliyin zərərinə dair əks təbliğat sistemli deyil. Zərərin azaldılmasına yönələn layihələr məhduddur və coğrafi baxımdan qeyri-bərabər paylanıb.

❖ “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanunu uşaqların zərərli informasiyalardan qorunması ilə bağlı məsələləri tənzimləyir. Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentin Fərmanının icrası istiqamətində fəaliyyətlər tam yerinə yetirilmir. Uşaqların zərərli informasiyalardan qorunması üçün qanunvericilikdə nəzərdə tutulan bütün müddəalar yerinə yetirilməlidir. Yalnız telekanallarda verilən verlişlərə baxmaq üçün yaş xəbərdarlığının (12+, 18+ və s.) edilməsi kifayət deyildir və əksinə bir çox hallarda belə xəbərdarlıq uyğun olmayan yaş qruplarında marağı artırır. Qanunun 3.0.3-cü maddəsi ilə müəyyən olunan məlumatların təbliğinin yolverilməzliyi göstərilsə də praktikada bu tələbə əməl edilmir. Xüsusən sosial şəbəkələr üzərindən narkomanlığın, o cümlədən yeniyetmə narkomanlığının, eləcədə narkotik maddələr və onların perekursorları haqqında məlumatlar bəzən açıq, əksəriyyət halda isə dolayı təbliğat üsulu ilə yayılır.

❖ Narkomanlığa qarşı mübarizədə vətəndaş cəmiyyətinin rolu yüksəkdir. Azərbaycanda narkomanlığa, o cümlədən yeniyetmə narkomanlığına qarşı mübarizə üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatları mövcuddur və əvvəlki illərdə onların bu sahədə əhəmiyyətli fəaliyyətləri olmuşdur. Hazırda maliyyə mənbələrinə çıxışın məhdudluğu QHT-lərin bu istiqamətdə fəaliyyətini məhdudlaşdırmışdır.

## 9.TƏKLİF VƏ TÖVSİYƏLƏR

❖ Mövcud vəziyyət yeniyetmələr arasında zərərli vərdişlərin, o cümlədən narkomanlığın yayılmasının epidemioloji qanunauyğunluğunun öyrənilməsi, bu yaş kateqoriyası arasında narkotik maddələrə tələbatın artma səbəblərinin öyrənilməsi və profilaktikası üçün zəruri tədbirlərin həyata keçirilməsini aktuallaşdırır. Bu baxımdan ayrı bir dövlət proqramı qəbul edilməli və proqramda konkret olaraq, tibbi, sosial, maarifləndirici və məlumatlandırıcı, inzibati tədbirlər nəzərdə tutulmalıdır;

❖ Kompleks informasiya sisteminin yaradılması, narkomanlıq, narkotik vasitələrin və onların perekursorlarının qanunsuz dövriyyəsi, narkomanlığın yayılması, əsas tendensiyalar, yeniyetmə narkomanlığı və s. əvvəlki və yeni məlumatları özündə birləşdirən **Milli Müşahidə Mərkəzinin** yaradılması və ya bu fiunksiyanın Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına verilməsi zəruridir;

❖ Hal-hazırda yeniyetmələr arasında narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı sistemli tədqiqatlar aparılmır və statistika toplanılmır.Yeniyetmələr arasında narkotik vasitələrin qanunsuz dövriyyəsi (istehlak, saxlama, satma və s.) ilə bağlı məlumatların toplanılması və təhlili üzrə sistemin yaradılması vacibdir. Bunun üçün müvafiq beynəlxalq qurumların hazırladığı və ya bir sıra ölkələrin istifadə etdiyi metodların tətbiqi zərurəti vardır. Hər il xüsusi metodlarla yeniyetmə narkomanlığına dair məlumatların toplanması, tendensiyaların müəyyən edilməsi və mübarizə taktikasının müəyyən edilməsi üçün belə məlumatların olması vacibdir;

❖ Məktəblərdə şagirdlərin əhval-ruhiyyəsinin məktəb həkimi (olmayan halda poliklinika həkimi cəlb edilməklə), tibb bacısı (feldşer) psixoloq tərəfindən mütamadi yoxlanması vacibdir. Bir sıra ölkələrdə bu metod nəticəsində yeniyetmələrin zərərli vərdişlərə meyl etməsinin qarşısı alınmaqla yanaşı onları ailədəki vəziyyəti, o cümlədən məişət zorakılığı qurbanı olub olmaması müəyyən edilə bilir;

❖ Məktəblərin pedaqoji heyəti özünü müəmmalı aparan, kəskin davranış dəyişikliyinə məruz qalan şagirdlərin müəyyən edə bilmələri üçün  əlavə kurslara cəlb edilməlidir. Hər məktəbdə bir neçə hazırlıqlı pedaqoqun olması şagirdlərdə davranış dəyişikliyinin və onun səbəblərinin müəyyən edilməsi üçün kifayət edir;

❖ Tədqiqat nəticəsində ailələr tərəfindən övladlarının pis vərdişlərə, o cümlədən narkomanlığa düçar olunması halını gizlətmələri bir daha təsdiq olunur. Bu isə yeniyetmə narkomanlığının latent vəziyyətdə qalması və ona qarşı profilaktik tədbirlərin həyata keçirlməsinə imkan vermir. Ailələrin övladları barədə məlumatları gizlətməsinin səbəblərinin aradan qaldırılması ilə bağlı xüsusi tədbirlər görülməli, zəruri hallarda qanunvericilik bazası təkmilləşdirilməlidir (Məsələn,16-18 yaş arasıında olan yeniyetmələrin narkotik maddələrin əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımaya görə cinayət məsuliyyətindən azad edilməsi və s.);

❖ Ailələrdə olduğu kimi cəmiyyətdə də pis vərdişlərə aludə olmuş yeniyetmələr barədə aidiyyatı qurumlara məlumat verilməsi praktikası yoxdur. İnkişaf etmiş cəmiyyətlərdə bu mexanizm nisbətən uğurla işləyir. Bunun üçün məlumatı qəbul və emal edən və məlumatı verənin anonimliyini təmin edən mexanizm və qanunvericilik olmalıdır. Mövcud aidiyyatı qurumlarda belə mexanizmlərin yaradılması və müvafiq qanunvericilik təminatının yaradılması zəruridir;

❖ Müvafqi orqanlar tərəfindən **“Narkotiklər üzərində nəzarət üzrə Beynəlxalq Komitənin**” hazırladığı illik hesabatlarda verilən tövsiyələrin öyrənilməsi vacibdir.

Yeniyetmələr arasında narkomanlığa qarşı mübarizədə əsas alət kimi narkomanlığın xəbərdar edilməsi (əvvəlcədən qarşısının alınması) və ya ilkin profilaktikaya üstünlük verilməli, bunun üçün yeniyetmələr arasında zərərli vərdişlərin yaranma səbəbləri düzgün müəyyən edilməli və səbəblərin aradan qaldırılmasına yönələn tədbirlər həyata keçirilməlidir. Paralel olaraq artıq aludə olmuş yeniyetmələrin müəyyən edilərək tibbi və sosial reablitasiya tədbirlərinə cəlb edilməsi üçün əlavə mexanizmlər yaradılmalıdır;

❖ Dövlət və bələdiyyələrin balansında olan idman qurğularının, idman komplekslərinin əlçatanlığı təmin olunmalıdır. Hazırda mövcud olan müasir idman kompleskləri, o cümlədən olimpiya idman kompleksləri əksəriyyət yeniyetmə və gənclər üçü əlçatan deyil. Mövcud olan idman avadanlıqlarından və qurğularından istifadə ödənişli əsaslarladır. Ödənişlə əsaslar saxlanılmaqla təminatsız ailələrin üzvlərinin belə idman qurğularından istifadəsinə şərait yaradılması üçün müxtəlif mexanizmlər hazırlanmalıdır. Məsələn, məktəblərdə əla və yaxşı qiymətlər alan şagirdlərə, könüllü fəaliyyətə qoşulan gənclərə belə idman qurğularından ödənişsiz istifadə üçün müddətli xüsusi talonların verilə bilər. Şəhid ailələrinin, müharibə veteranlarının, o cümlədən müharibədə sağlamlığını itirənlərin ailə üzvləri üçün belə qurğulardan istifadə müddətsiz olaraq ödənişsiz olmalıdır. Həmçinin digər təminatsız ailələrin (məsələn, Ünvanlı Dövlət Sosial Yardımı alanların övladları) üzvləri üçün də güzəştlər nəzərdə tutulmalıdır.

❖ Məktəblərdə və məhəllələrdə aktiv idman oyunlarının stimullaşdırılması üçün yerli icra hakimiyyəti orqanları, gənclər təşkilatları və bələdiyyələr xüsusi proqramlar hazırlamalı və onun icra etməlidirlər. İdmanın populyarlaşdırılması yeniyetmə və gənclərin pis vərdişlərə meyl etməsinin qarşısının alınmasında əhəmiyyətli rola malikdir. Bu baxımdan Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi xüsusi tədbirlər planı hazırlayaraq hökumətə təqdim etməlidir;

❖ Yeniyetmələrin və gənclərin asudə vaxtlarını keçirmələri və əlavə təhsil almaq üçün digər mümkün yerlərin ifrat kommersiyalaşmasının qarşısı alınmalıdır. Dövlət və bələdiyyə asudə vaxt mərkəzlərinin şəbəkəsi genişlənməli, qəsəbə və kəndləri də əhatə etməlidir. Regionlarda olan Heydər Əliyev mərkəzlərində yeniyetmələr üçün ödənişsiz kursların, o cümlədən dil, kompüter kurslarının açılması, mövcud olanların potensialının artırılması məqsədəuyğundur;

❖ Maarifləndirmə və məlumatlandırma sahəsində fəaliyyətlər yetərli deyildir. Televiziyalarda, dövrü mətbuatda sosial reklamları, peşəkarlıqla hazırlanmış sosial çarxların mütamadı olaraq verilməsi. Şəhərlərdə və digər inzibati ərazi vahidlərində xüsusi lövhələrin yerləşdirilməsi və narkomanlığın sosial bəla olmasını təşviq edən digər viziual üsullardan istifadə edilməsi kütləviləşdirilməlidir;

❖ Narkomanlığın yayılmasında və narkomanlığın təşviqində sosial şəbəkələrin mənfi rolu böyükdür. Sosial şəbəkələrdə və internet resurslarında narkotik maddələrin təbliği, xüsusən dolayı təbliğat üsullarından istifadəyə dair məlumatlar kütləvi yayılır və buna qarşı effektiv tədbirlər yoxdur. Bu baxımdan dövlət tərəfindən müvafiq qanunvericilik tədbirlərin görülməsi, narkomanlığı təşviq edən resurslar dərhal və operativ qapanması, belə şəbəkələrdən istifadə edənlərin məsuliyyətə cəlb edilməsi üçün əlavə qanunvericilik aktları qəbul olunmalı və mexanizmlər yaradılmalıdır;

❖ Yeniyetmələrin və həddi-buluğa yeni çatan gənclərin pis vərdişlərə, o cümlədən narkomanlığa meyl etmələri və aludə olmaları üçün məkanların sayı durmadan artır. Məktəb və məhəllələrdən əlavə gecə klubları, qəlyan xidmətinin olduğu iaşə müəssisələrində tütün və alkoqola həvəs sürətlə yaranır və növbəti mərhələdə daha “sərt

ləzzət” üçün yol açılır. Bu baxımdan belə müəssisələrdə yeniyetmə və yaşı 21-dən az olanlar üçün qadağalar qoyulmalı və qadağanı pozanlar məsuliyyətə cəlb edilməlidir;

❖ Müvafiq və üzərinə vəzifələr qoyulmuş dövlət orqanları “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanunu və bu Qanunun tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentin 20 noyabr 2018-ci il Fərmanının icrası istiqamətində fəaliyyətlər təkmilləşdirilməlidir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Milli Televiziya və Radio Şurasının və digər aidiyyatı orqanların koordinasiya olunmuş şəkildə fəaliyyət göstərməsi məqsədəuyğun olardı. Uşaqların zərərli informasiyadan qorunması haqqında” Qanunun 13.1., 13.2. və 14-cü maddəsinin tələblərinə uyğun olaraq yaradılan  Ekspert Şurasının fəaliyyətinə dair ictimaiyyətin məlumatlandırılması, zərərli məlumatlara dair ictimayyyətə mütamadi məlumatların verilməsi sahəsində müvafiq fəaliyyətlərin daha da təkmilləşdirilməsi zəruridir.

❖ “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında” Əsasnamə dövrün çağrışlarına və yeni idarəetmə üsullarına tam cavab vermir. Mövcud statistika yerli komissiyaların bu istiqamətdəki fəaliyyətlərinin qənaətbəxş olmadığını göstərir.Xüsusən yerli komissiyaların səlahiyyətlərinə yenidən baxılmalı və onlar üzərinə qoyulan vəzifələrin, xüsusən də əsasnamənin 22-ci bəndində əks olunan narkomanlığa düçar olan “*yetkinlik yaşına çatmayanlar barəsində materialları müalicə-profilaktika və reabilitasiya tədbirlərinin həyata keçirilməsi üçün müvafiq səhiyyə müəssisələrinə göndərmək*” vəzifələrini yerinə yetirilməsi üçün əlavə qanunvericilik tədbirlərinin həyata keçirilməsi zərurdir.

❖ “Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikasının Qanunu da daxil olmaqla uşaqların icbari dispanserizasiyasına dair normativ hüquqi aktlara yenidən baxılması zərurəti vardır. Uşaq narkomanlığının ilkin mərhələdə müəyyən edilməsi və profilaktik məqsədlər üçün kütləvi müayinə mexanizmləri tətbiq olunmasına dair qanunvericilikdə müvafiq müddəaların nəzərdə tutulması zəruridir;

❖ Narkomanlığa düçar olmuş, narkotik maddələrin əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımaya görə yeniyetmələrə münasibətdə alternativ tədbirlərə daha çox üstünlük verilməsi zəruridir. Tədqiqatlar göstərir ki, cinayət təqibi yeniyetmələrin islah olunmasına əksəriyyət hallarda nəinki kömək etmir, əksinə onların sonrakı taleyini müəyyənləşdirir və sonrakı cinayətlərə rəvac verir;

❖ İxtisaslaşmış qeyri-hökumət təşkilatlarına yeniyetmə Narkomanlığ ilə bağlı profilaktik fəaliyyətlərin, o cümlədən tədqiqat, maarifləndirmə, məlumatlandırma, zərərin azaldılması istiqamətlərində dövlət dəstəyinin artırılması zəruridir. Bu baxımdan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ixtisaslamış QHT-lərə qrantlar vermək imkanının olması yaxşı olardı. Bunun üçün Komitənin adının Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı ilə təsdiq edilmiş “*Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısı*” na daxil edilməsi məqsədəuyğun olardı. Bu istiqamətdə ixtisaslaşmış QHT-lərin rolunun artırılmasına yönələn digər tədbirlərin, o cümlədən QHT-lərə texniki yardımların göstərilməsi, QHT fəallarının bilik və bacarığının artırılması və QHT-lərə sosial sifarişlərin verilməsi mexanizmləri hazırlanmalıdır və müvafiq vəsaitlə təmin olunmalıdır.

❖ Narkotik maddələrin və onların pere-

kursorlarının, xüsusən son dövrlərdə geniş yayılan sintetik tərkibli uyuşdurucular və onların komponentlərinin qanunsuz dövriyyəsi və qanunsuz idxalının qarşısının alınmasına yönələn tədbirlərin effektivliyi artmalı, mütəşəkkil narkoticarətə qarşı daha sərt cəza tədbirləri həyata keçirilməlidir;

❖ Təhsil müəssələrinin, xüsusən orta məktəblərin yaxınlığında yeniyetmələrdə pis vərdişlərin yaranmasına səbəb olan ticarət obyektlərinin, o cümlədən alkoqollu və energetik içkilər və tütün məmulatları satan, qəlyan çəkmə xidməti göstərən obyektlər ləğv edilməlidir. Qanunvericilikdə bu məqsədlə nəzərdə tutulan məhdudiyyətlər ciddi şəkildə tətbiq olunmalıdır.

❖ Tədris müəssisələrinin yerləşdiyi ərazilərin yaxınlığında fəaliyyət göstərən internet klublarında (yeniyetmələrin zərərli informasiyalardan müdafiəsini təmin etmək məqsədi ilə),ticarət və iaşə obyektlərində (həmin ərazilərdə satışına qadağa qoyulmuş məhsulların satışının və istifadəsinin olub-olmasını müəyyən etmək məqsədi ilə) mütəmadi monitorinqlər həyata keçirilsin.

❖ Narkotik asılılıqdan əziyyət çəkən yeniyetmələr üçün “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikası Qanununa və Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli qərarı ilə “Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası”-na uyğun olaraq ixtisaslaşmış sosial-reablitasiya mərkəzlərinin yaradılması zəruridir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80, Hökumət Evi, IV Qapı
Tel: (+994 12) 498 00 92
Faks: (+994 12) 493 58 72
E-mail: office@scfwca.gov.az

https://twitter.com/AileQadinUsaq

https://www.instagram.com/aileqadinusaq/

https://www.facebook.com/AileQadinUsaqProblemleriUzreDovletKomitesi/

https://www.youtube.com/channel/UCda2OFUuU6FOpxer0IcjvfQ

Analitik hesabat  Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən hazırlanmışdır.
Bakı şəhəri, AZ1078, Ə.Hüseynov küçəsi, 1061-ci məhəllə, ev 7,  mənzil 347
http://labourrights-az.org/en
e-mail: office@labourrights-az.org